

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Azərbaycan Cənubi Qafqazın sabitləşdirici faktorudur

## Vaşinqton Bakı ilə münasibətlərin inkişafı üçün çalışır



Bax səh. 3

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
02 iyul
2024-cü il,
çərşənbə axşamı
№ 114 (6700)
Qiyməti
60 qəpik

# 2 qitədən 3 səfir Bakıda...







Bax səh. 2

# Sülh sazişinin başlıca şərti...

Bax səh. 2

## Xəyallardan reallığa...




Bax səh. 3

## Dünyanın ən böyük siyasi təşkilatı

İyulun 1-də Çin Kommunist Partiyasının yaradılmasının 103-cü ildönümü tamam olur. Kommunist Partiyası Çin Xalq Respublikasının hakim partiyası və üzvlərinin sayına görə dünyanın ən böyük siyasi təşkilatıdır.

Tarixinə gəldikdə isə, partiyanın yaranmasında XX əsrin əvvəllərində populyar olan marksist ideyaları mühüm rol oynayıb. Rusiyadakı bolşeviklərin oktyabr inqilabının təsiri altında 1919-cu ildə Çində məşhur 4 May Hərəkatı başlayıb, 1921-ci ildə isə ölkədəki bütün inqilabi qrupları təmsil edən Mao Tszedunun liderliyi ilə Çin Kommunist Partiyası təsis edilib...

Bax səh. 4

## Rəsmi start verildi

### Seçki proseduru...



Bax səh. 2

## İstehsal başlayır

Məlum olduğu kimi Tarif Şurasının qərarına əsasən, ölkəmizdə dizel yanacağının bir litrinin pərakəndə satış qiyməti 80 qəpikdən 1 manata, "A-92" markalı benzinin qiyməti isə 1 manatdan 1 manat 10 qəpiyə qaldırılıb. "Avro-5" keyfiyyət göstəricilərinə uyğun daxili istehsal edilən "Aİ-95" markalı avtomobil benzininin 1 litrinin qiymətinin iyulun15-dən bazarın konyukturasına uyğun olaraq, 0,40 manat ucuzlaşaraq 1,60 manat olması nəzərdə tutulub.

Tarif tənzimləmələri ilk növbədə ekoloji siyasətin mühüm istiqamətlərindən biri olan ətraf mühitin çirklənməsinin qarşısının alınmasına yönəlmiş təşviqedici xarakter daşıyır. Belə ki, havanın çirklənməsində xüsusi rol oynayan aşağı oktanlı yanacaq kimi dizel və "Aİ-92" markalı benzin dünya ölkələrində neçə müddətdir ki, sıradan çıxarılıb və əksər ölkələrdə "Aİ-92" markalı benzin istifadə olunmur. Qlobal səviyyədə böyük istehsalçılar premium markalı, elektrik və hibrid mühərrikli avtomobillərin istehsalına keçib...

Bax səh. 4

## Dünya üçün həyəcan təbili

Cari ilin noyabrında ölkəmizin ev sahibliyi edəcəyi COP29 konfransı ilə bağlı hazırda bütün dünyada geniş müzakirələr aparılır. BMT-nin ən irimiqyaslı tədbirlərindən sayılan beynəlxalq iqlim konfransının Bakı gündəliyindən gözləntilər kifayət qədər böyükdür. Müxtəlif dövlətlərin və beynəlxalq təsisatların yüksəksəviyyəli rəsmilərinin ifadə etdikləri fikirlərdən bir daha aydın olur ki, paytaxtımızda müzakirələrin hansı istiqamətdə aparılacağı və hansı qərarların qəbul olunacağı həssaslıqla izləniləcək. Elə bu günlərdə BMT-nin Baş katibi Antonio Quterreş TASS agentliyi baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində COP29-la bağlı bir sıra mühüm məqamlara yenidən diqqət çəkib.

Qlobal təhdidlər beynəlxalq həmrəyliyin möhkəmləndirilməsi yolu ilə aradamn qaldırılmalıdır. İndiyədək BMT-nin qəbul etdiyi...

Bax səh. 5

## Macarıstan Aİ-nin sədri kimi...

İyulun 1-də Avropa İttifaqına sədrlik Macarıstana keçib. Bu ölkə Avropa İttifaqı rəhbərliyi ilə bir sıra məsələlər, o cümlədən Rusiya ilə Ukrayna arasındakı münaqişə, eləcə də miqrasiya məsələləri üzrə ciddi fikir ayrılıqları fonunda Aİ-yə altı aylıq sədrliyə başlayıb. Belə ki, rəsmi Budapeşt ötən gün  estafeti Belçikadan təhvil alıb, dekabrın sonunda isə rotasiya qaydasında onu Polşaya ötürəcək.

Budapeştlə Brüssel arasında formalaşan mürəkkəb münasibətlər hətta Macarıstanın sədrliyi dövründə "Avropanı yenidən möhtəşəm edək!" şüarının seçilməsində də özünü göstərib. Bəzi xarici ekspertlərin fikrincə, bu şüar Avropa İttifaqının hazırkı rəhbərliyinin dəstəkləmədiyi, lakin Macarıstanın Baş naziri Viktor Orbanın müsbət yanaşdığı ABŞ-ın sabiq Prezidenti Donald Trampın seçkiqabağı devizinə bənzəyir. Budapeştin...

Bax səh. 6

## Ermənistan üçün ən böyük maneə - konstitusiya...

Hazırda Ermənistan konstitusiyasının dəyişdirilməsi gündəmin əsas mövzularından biridir. Çünki bu ölkənin konstitusiyasının dəyişdirilməsi Azərbaycanın əsas tələbləri sırasındadır. Səbəb isə burada Azərbaycana qarşı ərazi iddialarının yer almasıdır. Ermənistan Cənubi Qafqazda sülhün tərəfdarıdırsa, Azərbaycana qarşı ərazi iddialarına son qoymalıdır. Dövlətimiz rəsmi səviyyədə bununla bağlı qarşı tərəfə dəfələrlə  xəbərdarlıq edib. Nəzərə almaq lazımdır ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-ə yenidən birləşmək haqqında" birgə qondarma qərar yer almaqdadır. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Yəni fakt...

Bax səh. 6

# İkinci məğlubiyyət...

## Makronizm iflasa uğrayır



İkinci məğlubiyyət...

Bax səh. 7

Bax səh. 7

# 2 qitədən 3 səfir Bakıda...

## Mövcud potensialın reallaşdırılması üçün qarşılıqlı iradə var

### Prezident İlham Əliyev Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Maksat Mamıtkanovun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Maksat Mamıtkanov Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və ən xoş arzulara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş etdi.

Söhbət zamanı əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsində inkişaf etməsi məmnunluqla qeyd olundu.

Son illərdə ikitərəfli münasibətlərimizin böyük dərəcədə inkişaf etdiyini və keyfiyyətcə yeni mərhələyə qalxdığını deyən Azərbaycan Prezidenti dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin əhəmiyyətinə toxundu, ənənəvi dostluq və qardaşlıq əlaqələrimizin möhkəmləndiyini vurğuladı.

Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, iqtisadiyyat, investisiya, nəqliyyat və digər sahələrdə mühüm layihələrin həyata keçirildiyini məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Ağdam rayonunda Qırğızıstanın məktəb tikintisi layihəsini və quruculuq prosesinə göstərdiyi dəstəyi vurğulayaraq buna görə Qırğız Prezidentinə və xalqına bir daha minnətdarlığını bildirdi, bunu qardaşlıq əlaqələrimizin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev əməkdaşlığımızın genişləndirilməsi üçün qarşıda böyük planların durduğunu dedi və əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan və Qırğızıstan rəhbərliyində qardaş ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və mövcud potensialın reallaşdırılması üçün qarşılıqlı iradənin olduğunu bildirdi.

Türk Dövlətləri Təşkilatı çərçivəsində ölkələrimizin əməkdaşlığına toxunan Prezident İlham Əliyev bu təşkilatın bir ailə olduğunu qeyd etdi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının ilk dəfə Şuşa şəhərində keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyətinə toxunuldu, bu tədbirdə dövlət başçıları arasında aparılacaq dialoq və müzakirələrin önəmi vurğulandı.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Maksat Mamıtkanov münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini vurğuladı, əlaqələrimizin genişləndirilməsi ilə bağlı Qırğızıstan Prezidentinin ona tapşırıqlar verdiyini dedi və bu istiqamətdə səylərini əsirgməyəcəyini bildirdi.

Ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin yüksək səviyyədə olduğunu deyən səfir qeyd etdi ki, Azərbaycanın Qırğızıstana yatırdığı irihəcmli investisiyalar ölkə iqtisadiyyatının inkişafına böyük kömək göstərir.

Əməkdaşlığımızın möhkəmləndirilməsi üçün geniş potensialın olduğunu vurğulayan Maksat Mamıtkanov dedi ki, dövlət başçılarımız arasında olan münasibətlər və onların göstərdiyi səylər əlaqələrimizin uğurlu inkişafının əsasını qoyub.

Qırğızıstan Prezidentinin bu ilin aprelində ölkəmizə dövlət səfərinin əhəmiyyətinə toxunan səfir bu səfərin çox uğurlu olduğunu və yaxşı nəticələr verdiyini vurğuladı.

O, Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılmasının əhəmiyyətinə toxundu, onun ölkələrimiz arasında əməkdaşlığın inkişafına verdiyi töhfəni qeyd etdi.

Maksat Mamıtkanov Qırğızıstanda İssık-Kul gölünün sahilində Azərbaycan tərəfindən beşulduzlu mehmanxananın inşasının ölkəsində kurort sahəsinin inkişafında böyük rol oynayacağını dedi.

Diplomat görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun irsinə və onun xatirəsinə Azərbaycan tərəfindən göstərilən ehtirama görə minnətdarlığını bildirərək, Sadır Japarovun ölkəmizə dövlət səfəri zamanı Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə görkəmli qırğız yazıçısının Bakıda abidəsinin açılışını məmnunluqla xatırladı.

Azərbaycan Prezidenti qeyd etdi ki, Çingiz Aytmatov bütün türk sivilizasiyasının övladıdır və dünyada böyük şöhrətə malikdir.

Görüşdə COP29 çərçivəsində Azərbaycanın və Qırğızıstanın birgə təşəbbüs imkanları barədə fikir mübadiləsi aparıldı.

## Azərbaycan Qlobal Cənubun tərkib hissəsi olaraq...

### Prezident İlham Əliyev Filippinin yeni səfirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Filippin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Henri Jr. Bensurtonun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Henri Jr. Bensurto Filippin Prezidenti Ferdinand Romualdez Markosun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Filippinin dövlət başçısına çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafını qeyd edərək beynəlxalq təşkilatlar çərçivəsində, həmçinin turizm, investisiyalar sahələrində əməkdaşlığa və insanlar arasında təmaslara toxundu, hökumət nümayəndə heyətlərinin səfərlərinin önəmini vurğuladı.

Səfir Azərbaycanın Qoşulmama Hərəkatında sədrliyinin çox uğurlu olduğunu, bu məsələdə böyük bir irs qoyduğunu və ölkəmizin bu Hərəkatın təsisatlanması istiqamətində ciddi addımlar atdığını qeyd etdi.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Henri Jr. Bensurto Filippinin də bu tədbirdə yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını dedi.

Dövlətimizin başçısı ölkəmizin həm Qoşulmama Hərəkatına, həm də COP29-a sədrliyi ilə bağlı təbriklərə və xoş sözlərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uğurla həyata keçirilməsinə üzv ölkə kimi Filippinin göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı COP29 çərçivəsində Azərbaycanın Qlobal Cənubun tərkib hissəsi olaraq ölkələr arasında həmrəyliyin gücləndirilməsinə və körpülərin qurulmasına çalışacağını vurğuladı.

## Sülh sazişinin başlıca şərti...

### Kanadanın yeni səfiri İlham Əliyevin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Kevin Hamilton Azərbaycanın çox gözəl, dinamik inkişaf edən və mühüm ölkə olduğunu vurğuladı. Azərbaycan ilə Ermənistan arasında əhatəli sülh müqaviləsi imzalanarsa regionda əməkdaşlıq üçün yeni imkanların yarana biləcəyinə ümidvarlığını bildirən səfir dedi ki, biz regionda daha yaxşı münasibətlərin qurulmasını arzulayırıq ki, bunun nəticəsində bizim həm Azərbaycan, həm də Ermənistan ilə əlaqələrimiz inkişaf etsin.

Səfir Kanadanın həmişə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirərək, ədalətli, əhatəli və daimi sülh müqaviləsi üzərində fəal iş aparıldığından məlumatlı olduğunu dedi.

Dövlətimizin başçısı torpaqlarımızın işğalı dövründə orada etnik təmizləmə və soyqırımının törədildiyini, ərazilərimizin kütləvi şəkildə dağıdıldığını qeyd etdi. Prezident İlham Əliyev həmin dövrdə münaqişənin həlli ilə bağlı çox böyük səylər göstərildiyini, lakin bu səylərin uğursuz olduğunu bildirdi. Belə ki, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvü münaqişənin həllinə nail ola bilmədi, daha doğrusu olmaq istəmədi. Onların hamısı Ermənistanın həyata keçirdiyi işğalın müxtəlif səbəblər üzündən həmişəlik olmasını istəyirdi. Dövlətimizin başçısı bu qənaətə prezidentlik fəaliyyətində öz şəxsi təcrübəsi əsasında gəldiyini dedi. Prezident İlham Əliyev 2003-cü ilin sonundan başlayaraq keçmiş Minsk qrupu üçlüyü və Ermənistan tərəfi ilə dəfələrlə görüşdüyünü xatırladı və bütün bunların heç bir nəticə vermədiyini dedi. Dövlətimizin başçısı bildirdi ki, keçmiş Minsk qrupunun üzvləri və Ermənistan tərəfi bunu istəmirdi. Ermənistan tərəfi torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi.

Dövlətimizin başçısı bildirdi ki, hazırda biz ikitərəfli səviyyədə daha yaxşı nəticələr görürük. Kiminsə tərəfindən bu prosesə müdaxilə yoxdur. Sərhədlərin delimitasiyası, hətta nadir hal olan demarkasiya məsələlərində razılıqlara gələ bilirik. Azərbaycan Prezidenti qeyd etdi ki, düzdür, hələ sülh müqaviləsi imzalanmayıb, lakin artıq sərhədlərin delimitasiyasına nail olunub.

Prezident İlham Əliyev vurğuladı ki, COP29 məsələsində Ermənistan bizim bu tədbirə ev sahibliyi etməklə bağlı məhdudiyyətini aradan qaldırdı, biz isə onların COP-un idarəedici orqanlarında iştirakına qarşı çıxmadıq. Dövlətimizin başçısı qeyd etdi ki, açığı, o, belə hesab etmir ki, Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsi bizim hansısa bir ölkə ilə ikitərəfli münasibətlərimiz üçün mühüm rol oynaya bilər.

Qlobal səviyyədə diplomatik fəaliyyətimizi şaxələndirdiyimizi deyən dövlətimizin başçısı Azərbaycan ilə Avropa İttifaqının 10 ölkəsi arasında strateji tərəfdaşlıq haqqında bəyannamənin olduğunu qeyd etdi və vurğuladı ki, bu sənədlərin çoxu torpaqlarımızın işğalı zamanı Azərbaycan ilə Ermənistan arasında heç bir sülh müqaviləsi olmadığı bir dövrdə imzalanıb. Bu baxımdan Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin olmaması hər hansı bir ölkənin regionda fəaliyyətinin səviyyəsinin müəyyənləşdirilməsi üçün bir amil ola bilməz.



Dövlətimizin başçısı bir məqamı da vurğuladı ki, Ermənistan 28 illik bir dövrdə beynəlxalq hüququn fundamental prinsipləri ilə razılaşmaq istəmədi. Onlar bütün humanitar qanunları pozdular, BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən müvafiq qətnamələrinə məhəl qoymadılar. Heç kim onlara zərrə qədər də irad tutmurdu. Münaqişə barədə danışan bir çox ölkələr Azərbaycanın ərazi bütövlüyünə sadiqlik bəyan etmirdilər. Prezident İlham Əliyev vurğuladı ki, indi - biz Ermənistanın işğalçı ordusuna döyüş meydanında qalib gəldikdən və onları torpaqlarımızdan qovduqdan sonra bizim ərazi bütövlüyümüzə dəstəklə bağlı bəyanatlar eşidirik. Amma biz bunu artıq özümüz təmin etmişik. Kiminsə bizim ərazi bütövlüyümüzü tanıyıb-tanımaması mahiyyət kəsb etmir. Azərbaycan Prezidenti qeyd etdi ki, bu, torpaqlarımız işğal altında olan bir dövrdə önəmli idi. Bəli, bir sıra Qərb ölkələrində ermənipərəst sentimentlərin mövcudluğu, erməni diasporunun rol oynaması məlumdur. Amma beynəlxalq hüquqa gəldikdə bu emosiyalar kənara qoyulmalıdır. Lakin bunu anlamaq önəmlidir ki, 28 illik bir dövrdə razılaşdırıla bilməyən məsələlərinin 1-2 ilə həll edilməsi çətindir. Həm də Azərbaycan ilə Ermənistan arasında substantiv danışıqlara demək olar ki, dekabr ayında başlanılıb. Çünki ondan əvvəl Ermənistan sülh müqaviləsinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini salmaq istəyirdi və bu, qəbuledilməz idi. Prezident İlham Əliyev vurğuladı ki, çünki bu, bizim daxili məsələmizdir. Beləliklə, separatçı rejim ləğv edildikdən sonra dekabr ayından başlayaraq danışıqlar cəmi 6 aydır gedir. Dövlətimizin başçısı bildirdi ki, buna zaman lazımdır və əlbəttə, sülh sazişinin başlıca şərti Ermənistanın konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq. Bu, məlum məsələdir.

Azərbaycan Prezidenti qeyd etdi ki, bununla yanaşı, hesab edir ki, danışıqlar prosesi çərçivəsində kifayət qədər sürətli irəliləyirik. Dövlətimizin başçısı dedi: "Zənnimcə sülh müqaviləsinin mətni, ən azı əsas prinsipləri üzərində işi bir neçə aya yekunlaşdıra bilərik. Bildirim ki, işğal dövründə vasitəçilərin planı Madrid prinsipləri adlandırılan əsas prinsiplərlə bağlı razılığa gəlməkdən ibarət idi. Onlar paraflanmalı və daha sonra isə mətn tərtib edilməli idi. Hesab edirik ki, bu, bir variant ola bilər - əsas prinsiplərlə bağlı razılıq əldə edilsin, onlar paraflansın və daha sonra mətn üzərində iş getsin". Prezident İlham Əliyev qeyd etdi ki, bu, onların konstitusiyaya dəyişiklik edəcəkləri təqdirdə baş tutacaq.

Qayıdış hüququ ilə əlaqədar səfirin şərhinə cavabında Azərbaycan Prezidenti bildirdi ki, qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir. Bu xüsusda dövlətimizin başçısı keçən yüzillikdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə köklü Azərbaycan əhalisinin indiki Ermənistan ərazisindən etnik təmizləməyə məruz qaldığını və onlara aid maddi-mədəni irsin tamamilə dağıdıldığını qeyd etdi.

Səfir dövlətimizin başçısına hörmətini ifadə edərək, məlumatlara görə minnətdarlığını bildirdi.

## Rəsmi start verildi

### Seçki proseduru...

### MSK -nın Təqvim Planı qəbul edilib

Bu ilin sentyabrın 1-də ölkəmizdə növbədənkənar parlament seçkiləri keçiriləcək. Xatırladaq ki, Prezident İlham Əliyevin iyunun 28-də imzaladığı müvafiq Sərəncama əsasən altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisi buraxılıb və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər təyin edilib.

Qeyd edək ki, bununla bağlı iyunun 29-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. İclasda seçkilərin keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə seçki subyektləri tərəfindən ardıcıl, sistemli və keyfiyyətlə icra olunması, onlara metodiki yardım göstərilməsi və fəaliyyətlərinin səmərəliliyinin artırılması məqsədilə seçki prosesinin bütün başlıca mərhələlərini əhatə edən zəruri məqamların əks olunduğu Təqvim planı Komissiya üzvlərinin müzakirəsinə təqdim edilib. Sözügedən mühüm seçki sənədinin hər bir hissəsi ayrı-ayrılıqda diqqətə çatdırılıb və aparılan müzakirələrin ardınca təsdiq olunması qərara alınıb. Bundan başqa, qarşıdan gələn seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, eləcə də vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə MSK nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də baxılıb və 9 nəfərdən ibarət tərkibdə ekspert qrupunun yaradılmasına qərar verilib. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq dairə seçki komissiyaları nəzdində 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə seçki dairələrinin dairə seçki komissiyalarına həvalə olunub.

Komissiyanın iclasında, həmçinin deputatlığa namizədliyin qeydə alınması məsələsinə MSK-da baxılması zərurəti yarandığı halda müvafiq sənəd və məlumatların yenidən yoxlanılması məqsədilə Komissiya nəzdində aidiyyəti dövlət qurumlarının mütəxəssislərindən ibarət İşçi qrupu yaradılıb və MSK-nın üzvü İşçi qrupunun rəhbəri təyin olunub.

### 450 imza toplayaraq...

Qeyd edək ki, ölkəmizdə keçirilən bütün seçkilər, o cümlədən parlament seçkiləri ölkə Konstitusiyasına, Seçki Məcəlləsinə və müvafiq qanunverici aktlara əsaslanır. Konstitusiyanın 85-ci maddəsinin 1-ci bəndinə əsasən Azərbaycan Respublikasının seçkilərdə iştirak etmək hüququna malik olan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər. Sözügedən maddənin II bəndində göstərilir ki, ikili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər.

Milli Məclisə seçkilər zamanı deputatlığa namizədlərin irəli sürülməsi proseduru isə Seçki Məcəlləsinə əsaslanır. Məcəllənin 146-cı maddəsinin 1-ci bəndində göstərilir ki, birmandatlı seçki dairəsi üzrə namizədləri siyasi partiyalar, siyasi partiyaların blokları, həmin seçki dairəsində daimi yaşayan, seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşları müvafiq Məcəllənin 53 və 54-cü maddələrinə uyğun olaraq irəli sürə bilərlər. Məcəllənin 147-ci maddəsinin birinci və ikinci bəndlərində vurğulanır ki, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanmalıdır və bir seçici birdən artıq namizədin müdafiəsi üçün imza ata bilər.

### Müşahidə prosesinin tənzimlənməsi...

MSK tərəfindən hazırlanmış növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planına əsasən isə, seçkilərin təyin edilməsi haqqında ölkə Prezidentinin Sərəncamının rəsmi dərcindən sonra passiv seçki hüququ olan vətəndaşlar öz təşəbbüsləri, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən birmandatlı seçki dairələri üzrə namizəd kimi irəli sürülə bilər. Sənədlərin təqdim edilməsindən sonra 5 gün müddətində Dairə Seçki Komissiyaları namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə əsaslandırılmış qərarı qəbul edir. Dairə seçki komissiyasının deputatlığa namizədliyin irəli sürülməsini təsdiq edən qərarından sonra isə namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, habelə siyasi partiyanın və siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələri verilir. Daha sonra namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması prosesi reallaşır. Seçkilərin təyin edilməsi haqqında Sərəncamın rəsmi dərcindən seçkilərin keçirilməsinə 10 gün qalanadək, yəni avqustun 22-dək aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı (öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında), eyni zamanda, beynəlxalq (xarici) müşahidəçilər (qanunla müəyyənləşdirilmiş qaydada Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə) Azərbaycan Respublikasının bütün seçki dairələrində müşahidə aparılması üçün ərizələrini Mərkəzi Seçki Komissiyasına təqdim edir. Paralel olaraq seçkilərin təyin edilməsi haqqında Sərəncamın rəsmi dərcindən seçkilərin keçirilməsinə 5 gün qalanadək, yəni avqustun 27-nə kimi aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı (öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında) seçki dairəsinin ərazisində müşahidə aparılması üçün ərizələrini müvafiq seçki dairəsinin dairə seçki komissiyasına təqdim etməlidir.



### Səsverməyə 24 saat qalmış...

Səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək (indiki halda iyulun 13-dən avqustun 2-si saat 18:00-dək) namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərini dairə seçki komissiyasına təqdim etməlidir. Sənədlər qəbul edildikdən sonra 7 gün müddətində Dairə seçki komissiyaları imza vərəqələrində və təqdim edilən digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və namizədin qeydə alınıb- alınmaması haqqında qərar qəbul edir - seçkiqabağı təşviqatın aparılması prosesi isə səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır. Qarşıdan gələn parlament seçkilərində bu proses avqustun 9-dan avqustun 31-i saat 08:00-a qədər davam edəcək. Seçkiqabağı təşviqat qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən həyata keçirilir.

**P.İSMAYILOV**



## Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin xidmətinin məlumatı

Müvafiq razılaşmalara əsasən, komissiyalar "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası məsələləri və sərhəd təhlükəsizliyi üzrə Komissiyanın birgə fəaliyyəti haqqında" Əsasnamə layihəsinin razılaşdırılması üzərində işləyirlər.

2024-cü il iyulun 1-nə olan vəziyyətə görə, komissiyalar işçi qaydada Əsasnamənin layihələrinin mübadiləsini həyata keçirib və bir sıra müzakirələr aparıblar. Danışıqlar konstruktiv məcrada davam edir. Razılaşdırma prosesinin tezliklə başa çatdırılması planlaşdırılır.

# Azərbaycan Cənubi Qafqazın sabitləşdirici faktorudur

## Vaşinqton Bakı ilə münasibətlərin inkişafı üçün çalışır

Vətən müharibəsindən ötən 4 il ərzində ortaya çıxan hərbi-siyasi reallıqlar, iqtisadi-ticari imkanlar özünün yeni komponentlərini formalaşdırıb. Belə ki, bölgənin ümumi inkişafı üçün təhdid kimi qiymətləndirilən separatizmin aradan qaldırılması yeni mərhələdə sülh və ümumi iqtisadi dinamizmin artırılması üçün yeni imkanlar yaradıb. Bu mərhələdə isə ən fəal iştirakçı və sabitləşdirici faktor kimi Azərbaycan çıxış etməkdədir. Ölkəmizin ortaya qoyduğu mövqe olduqca şəffaf və aydındır - Azərbaycan bölgədə milli maraqlara və ümumi regional mənafeyə xidmət edən sülhün axtarışındadır. Bölgənin qlobal çərçivədə əməkdaşlıq platformalarının uzlaşma məkanına çevirmək potensialını nümayiş etdirən Azərbaycan böyük oyunçuların da diqqətini Cənubi Qafqaza fokuslayıb. Beləliklə, əhəmiyyətli geocoğrafi və geostrateji məkanda yerləşən Cənubi Qafqaz özünün üstünlüklərini iqtisadi-siyasi dividendə çevirmək şansı qazanıb. Bu mənada, Azərbaycanın yaratdığı yeni mərhələ Cənubi Qafqazın həyatında sabit, inkişafa yönəlik dövrün başlanğıcı kimi tarixə düşmə imkanı yaradıb. Vurğulandığı kimi, regiona artan marağın fonunda aparıcı dünya gücləri prosesin axarı ilə yaxından maraqlanır, Azərbaycanın rolunu yüksək qiymətləndirir, sülh və gələcək əməkdaşlıqla bağlı hədəflərimizi bölüşdüklərini bildirirlər. Bəlli olduğu kimi, Azərbaycanın böyük bir coğrafiyada oynadığı fəal iqtisadi-siyasi rolu görməzdən gəlmək heç bir dövlət üçün uğur vəd etmir - tam əksinə, hər kəs anlayır ki, Azərbaycansız regional maraqların təmini mümkün deyil. Başqa sözlə, Cənubi Qafqaz və ya Mərkəzi Asiya ilə əlaqələrin şaxələndirilməsi, yeni mərhələyə qədəm qoyması yalnız və yalnız Azərbaycanın ortaya qoyduğu strateji yol xəritəsi əsasında baş tuta bilər. Bu fakt təkzibedilməzdir - ötən dövr ərzində həm sülh, həm də regional məsələlərin müzakirəsi ilə bağlı aparılan proseslər bunu təsdiqləyir.

### Azərbaycanın mövqeyi: Ermənistanın hərbiləşməsi təhdid yaradır

Bu mənada, ABŞ-ın prosesə diqqəti və həssaslığı isə xüsusi qeyd edilməlidir. Mütəmadi olaraq rəsmi Bakı ilə aparılan məsləhətləşmələr, fikir mübadilələri, səfərlər rəsmi Vaşinqtonun sülhlə bağlı mövqeyini ortaya qoymaqla yanaşı, həm də Azərbaycanın prosesdəki öncüllüyünü, liderliyini qəbul etdiyini göstərir. Yeri gəlmişkən, iyunun 28-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn ilə görüşüb. Görüş zamanı ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli gündəlikdə duran məsələlər, habelə Azərbaycan və Ermənistan arasında ikitərəfli əsasda normallaşma prosesinin cari vəziyyəti və perspektivləri, eləcə də regional məsələlər müzakirə edilib. Azərbaycanla ABŞ arasında bir sıra istiqamətlərdə tarixi əlaqələr və qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə vəziyyət, Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə aparılan danışıqlar barədə qarşı tərəfə məlumat verib. Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülhün və sabitliyin bərqərar edilməsində maraqlı tərəf olduğu xatırlanıb. Layihə üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistanın Konstitusiyasında və qanunvericilik aktlarında, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı davam edən iddialardan əl çəkməyin, Konstitusiyaya dəyişiklik edilməsinin vacibliyi vurğulanıb. Bununla yanaşı, Ermənistanın hərbiləşmə siyasətinin bölgədə sülhə və sabitliyə xidmət etmədiyi bildirilib.

Görüşdə, habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

### Sülh prosesi - Vaşinqton ikitərəfli təmasları izləyir...

Səfər əsnasında Bakıda jurnalistlərə açıqlama verən ABŞ rəsmisi bir sıra məsələlərə toxunub. Onlardan birincisi ABŞ-ın ikili təmasları yüksək qiymətləndirməsidir - bununla yanaşı, Vaşinqton proseslərdə iştirakçılıq arzusunu da gizlətmir. ABŞ-ın qənaətinə görə, prosesdə iştirak etməsi "fayda" gətirə bilər. Ceyms O'Brayn deyib ki, ölkəsi illərdir Ermənistan ilə Azərbaycan arasında sülh prosesinin dostu olaraq vasitəçilik missiyasından çox məmnundur: "Bu, bizim sülhün əldə olunmasında faydalı ola biləcəyimiz işlərdən biridir".

Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin Vaşinqtonda görüşəcəklərinə ümidvar olduğunu vurğulayan ABŞ Dövlət katibinin köməkçisi bildirib: "Vaşinqton buna ev sahibliyi etməkdən və ya hansısa başqa rola malik olmaqdan məmnun olar. İki ölkə arasında müxtəlif kanallar mövcuddur və tərəflər arasında çox effektli birbaşa kommunikasiya var. Bunlar regiona sülh gətirmək naminə hər iki ölkənin öz vətəndaşları üçün gördüyü işlərdir. Biz də prosesin dostu kimi bu işə cəlb olunmuşuq".

Vurğulandığı kimi, ötən 30 ildə proseslə bağlı vasitəçilik missiyaları həyata keçirilsə də, ümumi nəticəyə heç bir effektiv təsir göstərməmişdi. Son 3 il ərzində fərqli vasitəçi missiyalar prosesdə iştirakçı olsalar da, ümumi iş irəliyə yol tapa bilmədi - son 6 ay ərzində ikili təmasların daha da intensivləşdirilməsi isə artıq nəticələr verməkdədir. Məsələn, iki ölkə arasında müəyyən ərazilər üzrə delimitasiya prosesi həyata keçirilib, hətta sülhlə bağlı müsbət fikirlər belə səsləndirilib. Bu mənada, prosesin indiki mərhələsində sülhə töhfə vermək üçün yeganə addım Ermənistanı siyasi iradə nümayiş etdirməyə inandırmaq gərəkir - son aylarda İrəvanla münasibətlərini yeni mərhələyə daşımaq istəyən Vaşinqton Ermənistanı əbədi və davamlı sülhə razı salmaq üçün Konstitusiya dəyişikliyi, konstruktiv mövqe nümayişi kimi vacib məsələlərdə yardımçı ola bilər.





### Regional ticari imkanlar - ABŞ Zəngəzur dəhlizi məsələsində israr edir

ABŞ rəsmisinin səfərində ən diqqət çəkən məqmlardan biri də Vaşinqtonun Zəngəzur dəhlizi ilə bağlı mövqeyində daha qəti ştrixlərin müşahidə olunmasıdır. Məsələn, bir neçə ay öncə Ceyms O'Brayn ölkəsinin bununla bağlı mövqeyini açıqlayarkən bildirdi ki, ABŞ Mərkəzi Asiyadan Türkiyəyə Transqafqaz vasitəsilə ticarət yolu yaratmaq cəhdlərini dəstəkləməyə hazırdır - "əgər ticarət Mərkəzi Asiyadan Azərbaycan və Ermənistan vasitəsilə Türkiyəyə gedə bilsəydi, onda bu, bu ticarət yolu üzərində yerləşən bütün ölkələr üçün əhəmiyyətli stimul olardı. Və biz bunun bir hissəsi olmaq fürsətini alqışlayardıq", - deyən O'Brayn bu dəfəki səfərində daha dəqiq konturlara müraciət edir. O bildirib ki, region ölkələri arasında əməkdaşlıq nəinki təhlükəsizlik vəziyyətini yaxşılaşdıracaq, həm də malların Mərkəzi Asiyadan Azərbaycana, daha sonra isə Gürcüstan və Ermənistan vasitəsilə dünya bazarlarına çatdırılmasına imkan verəcək. Bu da, öz növbəsində, marşrut üzrə yerləşən bütün ölkələr üçün faydalı olacaq və ölkələr üçün geniş iqtisadi imkanlar yaradacaq.

Gürcüstanla yanaşı, Ermənistanın da adının tələffüz edilməsi ABŞ-ın yeni mərhələdə Orta Dəhliz seqmentinə Zəngəzur dəhlizinin də əlavə edilməsi ilə bağlı marağını nümayiş etdirir. Vaşinqton artıq özü üçün müəyyən edib ki, Azərbaycanın qətiyyəti ilə ortaya çıxan bu təşəbbüs yeni mərhələdə ticari əlaqələrin daha da genişlənməsi üçün mühüm fürsətlər yaradır. Beləliklə, Azərbaycanın liderliyi ilə ortaya qoyulan iradə Vaşinqton tərəfindən də qəbul edilir.

Regional və ən əsası iqtisadi layihələrin təhlükəsizliyi məsələsində də real mənzərə ortadadır - O'Brayn bildirib ki, son illərdə baş verən hadisələr Azərbaycana regionda siyasətin dəyişməsində vacib rol oynamağa imkan verdi ki, bu da, öz növbəsində, sülhün bərqərar olmasına şərait yaradıb. Bu, həm də ölkələr arasında illərdir davam edən mübahisənin həlli üçün bir yol, gələcəkdə dinc münasibətlər qurmaq imkanıdır və bütövlükdə, regiona fayda verəcək.

ABŞ dərk edir ki, bütün proseslərin tək stimulvericisi sülhün əldə olunmasıdır. Başqa sözlə, Azərbaycanın şərtləri əsasında sülhün imzalanması həm bölgənin ümumi, həm də yeni iqtisadi xəttlərin təhlükəsizliyinin təminatına ən bariz şəkildə töhfə verəcək.

### Təhlükəsizliklə bağlı əməkdaşlıq - Vaşinqton Azərbaycanın liderliyini etiraf edir

ABŞ ilə Azərbaycan arasında beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində yaxın əməkdaşlıq mövcuddur. Azərbaycan bu ölkənin terrora qarşı apardığı mübarizədə yaxından iştirak edir. Eyni zamanda, respublikamız NATO ilə də sıx əlaqələrə malikdir. Bu səbəbdən, Azərbaycan ABŞ üçün çox vacib regional tərəfdaş hesab edilir. Qarşılıqlı etimad və maraqlar əsasında qurulan Azərbaycan-ABŞ əlaqələri hər iki tərəfin mənafeyinə cavab verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına da töhfədir. Dünyada gedən bir sıra siyasi proseslər, müxtəlif ölkələr daxilində yaranan gərginlik, beynəlxalq cinayətkar qruplaşmaların, terrorçu təşkilatların fəaliyyətini genişləndirməsi hər iki dövlətin təhlükəsizlik sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığının əhəmiyyətini dəfələrlə artırıb. Qeyd edək ki, Ceyms O'Brayn da ABŞ-ın və Azərbaycanın regionda təhlükəsizlik çağırışları ilə bağlı daha sıx əməkdaşlıq edəcəyini gözlədiyini dilə gətirib. O bildirib ki, iki ölkə artıq bunu səmərəli şəkildə edir: "Lakin irəlilədikcə daha çoxunu edəcəyimizə ümidvarıq. Regionda sülhü təmin etmək diqqətimizi bölgədən kənarda olan təhdidlərə yönəltməyə imkan verəcək. Ümumiyyətlə, regionda inamın və etimadın yaradılması çox vacibdir".

Eyni zamanda, ABŞ rəsmisi Azərbaycanın və Ermənistanın NATO sammitinə dəvət edildiyini söyləyib. O bildirib ki, dövlət katibi Entoni Blinken sammit çərçivəsində NATO tərəfdaşları üçün tədbir təşkil edəcək: "Buraya Azərbaycan və Ermənistan da daxildir. Mən hər iki ölkənin tədbirdə xarici işlər nazirləri səviyyəsində iştirak edəcəyini gözləyirəm. Onlarla birlikdə, ümumilikdə, 30 tərəfdaş ölkə bu tədbirə qatılacaq".

### 907-ci düzəliş - mahiyyətini itirmiş akt

Ceyms O'Brayn səfəri çərçivəsində keçirdiyi brifinqdə ABŞ ilə Azərəbaycan arasındakı ikitərəfli əlaqələrin ruhuna zidd olan "Azadlığa Dəstək Aktı"nın 907-ci maddəsinə düzəliş məsələsinə də toxunub. O, ABŞ Konqresinin "907-ci düzəliş"in ləğvi məsələsini nəzərdən keçirmək istəyinin olduğunu hesab etmədiyini söyləyib: "Ancaq istisnalar mövcuddur. Hər bir administrasiya - Respublikaçılar və Demokratlar şərtlər tələb etdikdə bundan imtina olunmasına dair qərar qəbul ediblər. Hazırda mövcud durumu təhlil etməyə davam edirik. Düşünürəm ki, bizim Bakı ilə çox güclü işgüzar əlaqələrimiz var. Xüsusilə "907-ci düzəliş"in mane ola bilməyəcəyi təhlükəsizlik və əməkdaşlıq sahələrində bu əlaqələr mövcuddur.

ABŞ Dövlət katibinin köməkçisi vurğulayıb ki, iki ölkə bir-biri ilə qarşılıqlı əlaqə yaratmaq üçün çox səmərəli yollar tapır. "Bir çox sahələrdə çox sıx və dərin əməkdaşlığımız var. Ona görə də bunun maneə olduğunu düşünmürəm. Bu, həll etmək üçün birlikdə çalışdığımız problemlərdən yalnız biridir", - deyə Ceyms O'Brayn bildirib.

Qeyd edək ki, 1992-ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilmiş bu düzəliş rəsmi Vaşinqtonun Azərbaycana dövlət yardımı göstərməsini qadağan edir. "907-ci düzəliş" artıq mövcud olmayan Qarabağ münaqişəsi ilə əlaqədardır və nəzərə alsaq ki, müharibə bitib, bu düzəlişin heç bir siyasi və ya hüquqi əsası ola bilməz. Bu isə o deməkdir ki, "907-ci düzəliş" mahiyyət etibarı ilə də aktual ola bilməz...

***P.İSMAYILOV***

# Xəyallardan reallığa...

## Qarabağa gediş-gəliş daha asan olacaq

Vətən müharibəsində şanlı Zəfərə imza atan qalib Azərbaycan sırf öz gücünə, daxili imkanlarına arxalanmaqla addım-addım əsas hədəflərindən birinə yaxınlaşır. Söhbət işğaldan azad olunan 11 min kvadratkilometr ərazinin sürətlə bərpasından və məskunlaşdırılmasından gedir. Göz önündə yeni bir Qarabağ formalaşır. Dünya Prezident İlham Əliyevin "Biz ermənilərin viran qoyduqları, hər şeyi dağıtdıqları bu əraziləri Yer üzünün ən gözəl guşəsinə çevirəcəyik" vədinin necə sürətlə və yüksək səviyyədə yerinə yetirildiyinin şahidi olur.

### "Yolumuz Qarabağa"

Bu günlərdə otuz il ərzində doğma insanlarından ayrı düşən, yad əllərdə qalan Qarabağımızla bağlı yeni müjdə almışıq. Azərbaycanın milli aviadaşıyıcısı AZAL tarixində ilk dəfə olaraq Qarabağa müntəzəm reyslərə başlayacaq. Belə ki, aviaşirkət iyulun 13-dən etibarən Bakıdan Füzuli şəhərinə və əks istiqamətdə müntəzəm uçuşlar həyata keçirəcək.

Bu barədə məlumatı "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidməti yayıb. Bildirilib ki, uçuşlar həftədə iki dəfə olmaqla çərşənbə və şənbə günləri yerinə yetiriləcək.

Füzuliyə bir tərəfə aviabiletin qiyməti 78 manat təşkil edir. Bu qiymətə 10 kiloqrama qədər əl yükü və 23 kiloqrama qədər baqaj daxildir. Biletlər yaxın zamanlarda AZAL-ın saytında satışa çıxarılacaq.

Qeyd edək ki, Vətən müharibəsində işğaldan azad edilmş ərazilərə gediş-gəlişin intensivliyi getdikcə artır. Bunu bir tərəfdən ayrı-ayrı ünvanlarda həyata keçirilən bərpa-quruculuq işlərinin və əhalinin məskunlaşdırılmasının əhatə dairəsinin genişlənməsi şərtləndirir. Digər tərəfdən isə soydaşlarımızın üç onillik ərzində düşmənin işğalı altında qalan doğma şəhər və kəndlərimizi görmək, o yerlərə səyahət etmək istəkləri böyükdür. Bu kimi amillər nəzərə alınmaqla vətəndaşlara "Yolumuz Qarabağa" portalı üzərindən müvafiq qaydada icazə almaqla şəxsi minik avtomobilləri ilə Qarabağın ayrı-ayrı guşələrinə getmək imkanı yaradılıb. Eyni zamanda, bir sıra şəhərlərə paytaxtdan müntəzəm avtobus reysləri açılıb. Bu siyahıda Füzuli şəhəri də var. İşğaldan azad edilmiş ərazilərə üçüncü müntəzəm avtobus reysi məhz Füzuliyə açılıb. Bu münasibətlə keçirilən tədbir 25 iyun 2022-ci il tarixində baş tutub.

### Bakıdan Füzuliyə baş tutan ilk uçuş

Bir vaxtlar biz Şuşaya, Laçına, Xankəndinə, Ağdama və digər tarixi torpaqlarımıza səyahət edəcəyimizi xəyalımıza belə sığışdıra bilməzdik. Arzularımız Qarabağla sıx bağlı olsa da, bilirdik ki, işğal faktına görə babalarımızın, ulu əcdadlarımızın ruhları dolaşan o yerlərə getmək mümkünsüzdur. Vətən müharibəsində Müzəffər Ordumuzun qazandığı parlaq Qələbə sayəsində indi bizim belə bir imkanımız var.

Füzuli Hava Limanının inşası isə bütün dünya üzrə bir rekord sayıla bilər. Prezident İlham Əliyev 14 yanvar 2021-ci il tarixində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub. Beynəlxalq səviyyəli hava limanının açılışı isə həmin il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutub. 2021-ci il sentyabrın 5-də Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsindən əvvəl Bakıdan uçan "Azərbaycan Hava Yolları"na məxsus ən böyük "Airbus A340-500" tipli sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək işğaldan azad olunmuş Qarabağın ilk hava limanında eniş icra edib. Həmin təyyarəyə simvolik olaraq "Qarabağ" adı verilib. Bakı-Füzuli marşrutu üzrə sərnişin təyyarəsi ilə ilk uçuş müddəti 35 dəqiqə olub. Bundan əlavə, Azərbaycanın "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan "Boeing 747-400" tipli hava gəmisi də həmin gün Füzuli Beynəlxalq Hava Limanına eniş icra edib. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb.

Füzuli Beynəlxalq Hava Limanı ən müasir standartlar nəzərə alınmaqla inşa olunub. Hava limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Uçuş-enmə zolağı Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) bütün tələblərinə uyğun olaraq uçuşların təhlükəsizliyini təmin etmək üçün instrumental enmə və naviqasiya sistemləri, işıqtexniki, ilkin və ikinci radiolakasiya sistemləri ilə tam təchiz olunub. Avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi də yüksək səviyyədə aparılıb. Bunun sayəsində Füzuli hava limanına ICAO və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olub. Aeronaviqasiya sisteminə və işğaldan azad edilmiş ərazilər üzərindən uçuşlara tam nəzarəti təmin etmək üçün yeni beynəlxalq hava yolları tətbiq olunur.




### Qarabağın üç hava qapısı

İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistan mətbuatında Azərbaycanın işğaldan azad etdiyi ərazilərin bərpasına gücü çatmayacağı və bundan ötrü onilliklər lazım gələcəyi barədə dezinformasiya xarakterli məlumatlar dərc olunurdu. Ancaq qalib Azərbaycan həmin ərazilərin bərpasına müharibə başa çatandan dərhal sonra başladı. Eyni zamanda, Prezident İlham Əliyev Qarabağda üç ünvanda beynəlxalq səviyyəli hava limanlarının inşası ilə bağlı tapşırıqlarını verdi. Bərpa proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərdə üç hava limanının yaradılması Azərbaycanın niyyətindən və güclü potensialından xəbər verir.

Füzulidən sonra daha bir beynəlxalq səviyyəli hava limanının inşası Zəngilanda reallaşdırıldı. Yenə də iki qardaş ölkənin - Azərbaycanın və Türkiyənin dövlət başçılarının iştirakı ilə 2022-ci il oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirildi. Sayca üçüncü hava limanının inşası isə hazırda Laçın rayonunun ərazisində intensiv şəkildə davam etdirilir.

Füzulidə, Zəngilanda və Laçında olmaqla üç beynəlxalq səviyyəli hava limanının inşası bir sıra nöqteyi-nəzərdən önəmlidir. Hava limanlarının Azərbaycanın Ermənistanla sərhəd bölgələrində möhkəmlənməsi üçün yeni imkanlar açacağının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Bu, respublikamız üçün strateji önəm daşıyır. Məlumdur ki, bəhs olunan ərazilər çətin keçilən reylef şəraitinə malikdir. Xüsusilə qış aylarında buraya nəqliyyat vasitələrinin gediş-gəlişi çətinləşir. Qarabağda üç məkanda yaradılan hava limanları yenidən qurulan yüksək səviyyəli yollarla birlikdə bu çətinliyə birdəfəlik son qoyacaq və yayda, isti havalarda olduğu kimi, qış aylarında da Kəlbəcərə, Laçına, Qubadlıya, Zəngilana və digər yaşayış məntəqələrinə gediş-gəlişi mümkün edəcək, burada ölkəmizin hərbi mövcudluğunu daha da möhkəmləndirəcək. Hazırda Qarabağda fəaliyyətdə olan Füzuli və Zəngilan hava limanları işğaldan azad edilmiş ərazilərin bərpası üçün tələb olunan yüklərin daşınmasında mühüm rol oynayır. Eyni zamanda, ölkəmizin ərazisindən keçən Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinə inteqrasiya edilən hava limanları yeni yaradılacaq Zəngəzur Dəhlizinin çox mühüm həlqələrini təşkil edəcək.

***Mübariz FEYİZLİ***

# Dünyanın ən böyük siyasi təşkilatı

## İyulun 1-də Çin Kommunist Partiyasının yaradılmasının 103-cü ildönümü tamam olur

İyulun 1-də Çin Kommunist Partiyasının yaradılmasının 103-cü ildönümü tamam olur. Kommunist Partiyası Çin Xalq Respublikasının hakim partiyası və üzvlərinin sayına görə dünyanın ən böyük siyasi təşkilatıdır.

Tarixinə gəldikdə isə partiyanın yaranmasında XX əsrin əvvəllərində populyar olan marksist ideyaları mühüm rol oynayıb. Rusiyadakı bolşeviklərin oktyabr inqilabının təsiri altında 1919-cu ildə Çində məşhur 4 May Hərəkatı başlayıb, 1921-ci ildə isə ölkədəki bütün inqilabi qrupları təmsil edən Mao Tszedunun liderliyi ilə Çin Kommunist Partiyası təsis edilib.

Çin Kommunist Partiyası 28 illik mübarizədən sonra - 1949-cu ildə inqilab yolu ilə hakimiyyətə gəlib və Çin Xalq Respublikası yaradılıb. Ali orqanı 5 ildən bir keçirilən qurultay olan partiyanın Mərkəzi Komitəsi, Mərkəzi Komitənin Siyasi Bürosu, Siyasi Büronun Daimi Komitəsi fəaliyyət göstərir. Çin Kommunist Partiyasının sonuncu - XX Qurultayı 16-22 oktyabr 2022-ci ildə keçirilib. Çin Xalq Respublikasının siyasi həyatında ən mühüm hadisələrdən olan partiyanın budəfəki qurultayına 2296 nümayəndə qatılıb. ÇKP-nin Mərkəzi Komitəsinin Baş katibi, Çin Xalq Respublikasının Sədri Si Cinpinin başçılığı ilə keçirilən qurultayda Mərkəzi Komitənin və partiyanın Mərkəzi İntizam Nəzarəti Komitəsinin hesabat məruzələri, nizamnaməyə dəyişiklər təsdiqlənib. Bundan başqa, partiyanın Mərkəzi Komitəsinin 205 nəfərlik yeni tərkibi, habelə Mərkəzi İntizam Nəzarəti Komitəsinin tərkibi formalaşdırılıb.

ÇKP-nin Mərkəzi Komitəsinin qurultaydan bir gün sonra - oktyabrın 23-də keçirilən ilk plenumunda isə Mərkəzi Komitənin 205 nəfər yeni üzvü arasından 25 nəfər Komitənin Siyasi Bürosunun tərkibinə, onlar arasından 7 nəfər isə Siyasi Büronun Daimi Komitəsinə üzv seçilib. Mərkəzi Komitənin Siyasi Bürosunun Daimi Komitəsi partiyanın ən yüksək səviyyədə idarəetmə orqanıdır. Plenumda Daimi Komitənin 7 üzvündən biri - ÇXR-in Sədri Si Cinpin yenidən Çin Kommunist Partiyasının rəhbəri (Mərkəzi Komitənin baş katibi) seçilib.

Hazırda dünyanın ən böyük siyasi partiyası olan ÇKP-nin 98 milyondan çox üzvü var, partiyanın ilk təşkilatlarının sayı isə təxminən 5 milyondur.

Çin Kommunist Partiyasının hakimiyyəti dövründə ölkə böyük inkişaf yolu keçib. Hazırda dünyada iqtisadiyyatın böyüklüyünə görə Çin ikinci sırada qərarlaşıb. Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsi də bu ölkənin iqtisadi gücünü artırır. Belə ki, Çin Xalq Respublikası Avrasiya ölkələri arasında infrastrukturun yaradılması və qarşılıqlı əlaqələrin qurulmasına yönələn "Bir kəmər, bir yol" adlı iqtisadi inkişaf strategiyası elan edib. Strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur. Bunlardan biri "İpək Yolu İqtisadi Kəməri",



ikincisi isə "Dəniz İpək Yolu"dur. Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir.

Azərbaycan da Çinlə əlaqələrə böyük önəm verir. Ötən dövr ərzində bu əlaqələr yüksələn xətlə inkişaf edib. Eyni zamanda, Azərbaycan "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri olmaqla yanaşı, özünün iqtisadi potensialı, əlverişli coğrafi mövqeyi, eləcə də nəqliyyat-logistika imkanları ilə onun icrasına önəmli töhfələr verir. Prezident İlham Əliyev hələ 2015-ci ilin dekabrında Çində dövlət səfərində olarkən, iki ölkə arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalanıb. Dövlətimizin başçısı 2019-cu ildə 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edib. Bütövlükdə, Azərbaycan-Çin əlaqələrinin inkişafında dövlət başçılarının şəxsi dostluq münasibətləri də mühüm rol oynayır. Təsadüfi deyil ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi Çinin "böyük dostu" adlandırıb.

Onu da qeyd edək ki, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin 30 il davam etmiş keçmiş Qarabağ münaqişəsi dövründə hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib. Öz növbəsində, ölkəmiz də "Vahid Çin" siyasətini dəstəkləyir.

Azərbaycanın hakim Yeni Azərbaycan Partiyası da Çin Kommunist Partiyası ilə geniş əlaqələrə malikdir. Partiyalar arasında səmərəli, qarşılıqlı faydalı və çoxşaxəli əlaqələr mövcuddur. Yüksək səviyyəli əlaqələr fonunda hakim partiyalar tərəfindən qarşılıqlı səfərlərin təşkil olunması və təcrübə mübadilələrinin aparılması münasibətlərin gələcək inkişafı baxımından böyük önəm daşıyır. Bu mənada, qarşılıqlı səfərlərin də önəmi xüsusi qeyd edilməlidir. Xatırladaq ki, ötən ilin may ayında YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdə olub. Səfər zamanı keçirilən görüşlərdə Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının daimi təmaslarının və əməkdaşlıq əlaqələrinin mühüm rolu olduğu diqqətə çatdırılıb. Eləcə də, qarşılıqlı səfərlərin partiyalararası əlaqələrin bütün istiqamətlərdə inkişafına təkan verəcəyinə əminlik ifadə olunub.

Qeyd edək ki, bununla yanaşı, digər qarşılıqlı səfərlər də reallaşıb, həmçinin 2021-ci ilin iyul ayında Çin Kommunist Partiyasının yaranmasının 100 illiyi münasibətilə Çin Kommunist Partiyası və Dünya Siyasi Partiyalarının videokonfrans formatında keçirilən sammitində Yeni Azərbaycan Partiyasının nümayəndələri də iştirak ediblər. Hazırda Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında əməkdaşlıq uğurla inkişaf edir.

***Nardar BAYRAMLI***

SOCAR

# İstehsal başlayır

## "Aİ-95" markalı benzinin ucuzlaşması "Avro-5"-ə keçidi sürətləndirəcək

Məlum olduğu kimi Tarif Şurasının qərarına əsasən, ölkəmizdə dizel yanacağının bir litrinin pərakəndə satış qiyməti 80 qəpikdən 1 manata, "A-92" markalı benzinin qiyməti isə 1 manatdan 1 manat 10 qəpiyə qaldırılıb. "Avro-5" keyfiyyət göstəricilərinə uyğun daxili istehsal edilən "Aİ-95" markalı avtomobil benzininin 1 litrinin qiymətinin iyulun15-dən bazarın konyukturasına uyğun olaraq, 0,40 manat ucuzlaşaraq 1,60 manat olması nəzərdə tutulub.

Tarif tənzimləmələri ilk növbədə ekoloji siyasətin mühüm istiqamətlərindən biri olan ətraf mühitin çirklənməsinin qarşısının alınmasına yönəlmiş təşviqedici xarakter daşıyır. Belə ki, havanın çirklənməsində xüsusi rol oynayan aşağı oktanlı yanacaq kimi dizel və "Aİ-92" markalı benzin dünya ölkələrində neçə müddətdir ki, sıradan çıxarılıb və əksər ölkələrdə "Aİ-92" markalı benzin istifadə olunmur. Qlobal səviyyədə böyük istehsalçılar premium markalı, elektrik və hibrid mühərrikli avtomobillərin istehsalına keçib. Azərbaycan da məhz dünya ekoloji tələblərindən irəli gələn bu siyasətə keçid istiqamətində addımlar atır.



Bu siyasətin əsas hədəfi "Avro-5" standartlarına keçidin təmin edilməsi və buna uyğun olaraq maşın parkının da bu prosesə hazırlanmasıdır. Bu baxımdam "A-95"-in ucuzlaşması təşviqedici rol oynamaqla nəzərdə tutulan hədəflərə çatmaqda ilk addım kimi səmərəverici rol oynaya bilər, eləcə də növbəti mərhələlərdə aşağı oktanlı yanacaq sərfiyyatından kənarlaşmaların minimallaşdırılmasına yol açmaqla avtomobil bazarında müsbət vərdiş yaradacaq.

**Bəs, "A-95" indiyə qədər niyə ucuzlaşmırdı, əksinə bahalaşırdı?**

Azərbaycanda "Aİ-95" və daha yüksək oktanlı premium yanacaq emalının əsas gücü bloku olan Heydər Əliyev adına Neft Emalı Zavodu (NEZ) bir neçə il əvvəl təmirə dayandığından həmin yanacaq növünün idxalına zərurət yarandı. Azərbaycan təxminən 10 il idi ki, sözügedən marka yanacağa olan tələbatı xaricdən idxal hesabına təmin edirdi. Buna görə də respublikamız "Aİ-95" markalı premium benzini əsasən 4 ölkədən idxal edirdi, Rusiya, Bolqarıstan, Rumıniya və Türkmənistan ildə təxminən 150 min ton "Aİ-95" markalı benzin satırdı. Yol-nəqliyyat, daşınma, logistika və sair xərclər, eləcə də dünya bazarında həmin növ benzinin qiymət dəyişmələri ölkəmizdə gətirilən yanacağın bahalaşmasına səbəb olurdu. Ötən illərdə bir neçə dəfə qiymət artımları sayəsində 2 manata çatmışdı.

NEZ-də əsaslı şəkildə yenidən qurma və istehsal gücünün artırılması, sənayenin yüksək keyfiyyətli yanacaqla təmin edilməsi məqsədilə 2014-cü ildən başlanmış əsaslı təmir işləri isə beynəlxalq mütəxəssislərin apardığı qiymətləndirmələrdən sonra ələvə olaraq tamamilə modernizasiyaya açıldı və proses daha da uzandı. NEZ-in keçən əsrin 70-80-ci illərində inşa olunmuş bir neçə qurğunun, o cümlədən neftin ilkin emalı qurğusunun istismar müddətinin sona yaxınlaşması nəzərə alınaraq həmin qurğuların tamamilə yeniləri ilə əvəz edilməsi tövsiyə olundu.

Beləliklə, ötən dövrdə NEZ-də yenidənqurma layihəsi çərçivəsində əhəmiyyətli texnoloji işlər görüldü, istehsal gücünün artırılmasını təmin edəcək dayanıqlı infrastrukturlar quruldu, yeni istehsal qurğuları inşa edildi və zavoddakı qurğular yeni qurğularla əvəz edildi. Əsaslı təmir və yenidən qurma işlərinin 2022-ci ilə başa çatması və NEZ-də "Avro-5" tələblərinə cavab verən yanacağın istehsalına başlanılması nəzərdə tutulsa da, COVID-19 pandemiyası layihənin bir neçə il gecikməsinə səbəb oldu.

Layihə üzrə işlərin sürətləndirilməsi üçün beynəlxalq təcrübəli mütəxəssislərdən ibarət "SOCAR Downstream Management" şirkəti yaradıldı, SOCAR-ın Türkiyə ofisindən bir sıra təcrübəli mütəxəssislər işlərə cəlb olundu. "SOCAR Downstream Management" tərəfindən tərtib edilmiş "İstismar mükəmməlliyi" proqramı çərçivəsində gənc mütəxəssislər təcrübə mübadiləsi üçün SOCAR-ın Türkiyədəki "Star" neft emalı zavoduna təlimlərə göndərildi. Məqsəd daha tez "Avro-5" standartlarına çatmaq idi. NEZ-də aparılan yenidənqurma və modernizasiya işlərinin böyük bir hissəsinin tamamlanmasından sonra ötən aydan artıq "Aİ-95" markalı avtomobil benzini istehsalı mümkünləşdi. Həmin növ yanacağın birbaşa daxili istehsal hesabına təmin edilməsi isə qiymət konyukturasında ciddi dəyişikliyə əsas yaratdığından hökumət ucuzlaşmağa qərar verdi.

Beləliklə, respublikamıza xaricdən idxal edilən "Aİ-95" premium markalı benzinin yerli istehsal hesabına təmin olunması yanacaq bazarında ucuzlaşmalara gətirib çıxarır və bu prosesin növbəti mərhələdə də baş verəcəyi istisna deyil. "Aİ-95" premium markalı və "Aİ-98" super markalı benzindən sürücülərin az qismi istifadə etsə də, 40 qəpik ucuzlaşmadan sonra bu markalı yanacağa da keçid kifayət qədər artacaq. Bu isə təmiz ekoloji mühit standartlarına keçidin sürətlənməsinə də əhəmiyyətli təsir göstərəcək.

Araşdırmalar göstərir ki, ətraf mühitin çirklənməsinin böyük bir hissəsini avtomobillərdən müasir standartlara uyğun olmayan yanacaqlardan istifadə nəticəsində ayrılan zəhərli qazlar təşkil edir. Havanın çirklənməsi ilə bağlı dünya ölkələrində əsas hədəf elektromobillərə keçidi sürətləndirməkdir. Əksər ölkələrdə artıq "Aİ-92" markalı benzin istehsal olunmur və satılmır, dizelin daha böyük ekoloji zərəri nəzərə alınaraq istehlakının azaldılması üçün tədbirlər görülür. Bu məqsədlə bir çox ölkələrdə dizelin qiyməti elə tənzimlənir ki, benzinin qiymətindən baha olsun. Ölkəmizdə benzin mühərrikli avtomobillərin idxalı azalsa da, dizel mühərrikli avtomobillərin sayı artır. Dizel mühərrikli avtomobillərin havanı daha çox çirkləndirdiyini nəzərə alaraq, ölkələr onların istifadəsinin azaldılmasına doğru müxtəlif vasitələrdən istifadə edir ki, nəticədə nəqliyyat sektorunda keyfiyyətli yanacağa doğru motivasiya da artır. Bu baxımdan "Avro-5"standartlara uyğun "Aİ-95" və "Aİ-98"-ə keçidi stimullaşdıran tarif siyasəti optimallaşmada xüsusi əhəmiyyət kəsb edəcək.

***ELBRUS***

# Qiymətlər artsa da...

## Keyfiyyət daha da yaxşılaşacaq

İyulun 1-dən etibarən nəqliyyat sektoru, məişət tullantılarının daşınması və dərman vasitələri ilə bağlı tariflərin dəyişməsi əsas etibarilə bazar iqtisadiyyatının tələblərindən meydana çıxan idarətmə mexanizmlərinin optimallaşdırılması ilə bağlıdır. Belə ki, bazar iqtisadiyyatı şəraitində əsas tələblərdən biri olan rəqabətin təmin olunması və xidmət keyfiyyətinin artırılması başlıca şərtdir və tarif uyğunsuzluqları daim bu sahələrdə çevik idarətməyə və rentabelli, dayanıqlı fəaliyyətə mane olur, xidmət və keyfiyyət amillərini zəifīdir.

Bu xarakterik əlamətlər ölkəmizin nəqliyyat sektorunda uzun müddətdir ki, daha çox müşahidə edilir.



Belə ki, daşıyıcı şirkətlərin maşın parkının müasirləşdirilməsi, yeni avtobusların alınması, bu sahədə əsaslı təmir və modernizasiya işlərinin aparılması, sərmayə qoyuluşları imkanları məhdud idi. Nəticədə köhnə tariflər xidmət keyfiyyətinin artırılması, avtobus parkının yenilənməsi və nəqliyyat vasitələrinin daim saz vəziyyətdə saxlanmasına imkan vermirdi. Dövlət tərəfindən nəqliyyat sektoruna yönələn dotasiyalar isə bu sahəni hökumətdən ələbaxımlı vəziyyətə salır, daim subsidiya tələb olunur və daşıyıcı şirkətlərin əsaslı plan əsasında öz layihələrini icra etməsini əngəlləyirdi. Bütün bunları nəzərə alan hökumət tarif dəyişikliklərinə getməyə məcbur idi.

Tariflərin yenilənməsi zamanı dövlətin sosial siyasətinə uyğun olaraq, sosialyönümlülük nəzərə alınmaqla ən optimal tarif dəyişikliyi edilib. Belə ki, yeni tariflərin tətbiqi zamanı xidmət keyfiyyəti və müştəri məmnuniyyətinin artırılması, İstehlakçı ilə xidmət göstərən tərəflərin maraqlarının uzlaşdırılması, xidmətin dayanıqlılığının və iqtisadi əlverişliliyinin təmin olunması, keyfiyyətin yüksəldilməsi, avtobus parklarının yenilənməsi, metro infrastrukturunun genişləndirilməsi, vətəndaşların ictimai nəqliyyatdan daha rahat istifadəsinə səbəb olan yeni sərmayələrin cəlbi üçün səmərələdirici tədbirlər görüləcək və bu istiqamətdə işlər nəzərətdə saxlanılacaq.

Qeyd edək ki, ictimai nəqliyyat sektoru hədsiz dərəcədə bahalı sahədir və davamlı sərmayələr tələb edir. Bu fəaliyyət növü ilə məşğul olan özəl şirkətlərin isə sərmayə proqramları yetərli qədər olmadığından bu sahədə yenə də əsas yük dövlətin üzərinə düşür, dövlət bu sahədə əsaslı yenidənqurma işlərini, maşın parkının və avtobusların alınmasını öz xərcləri hesabına təmin edir. Ötən müddətdə şəhərdaxili və rayondaxili, şəhərlərarası avtobus marşrutlarında, metro nəqliyyatında tətbiq olunan tariflər bu sektorun zərərlə işləməsinə səbəb olmasına baxmayaraq, dövlət tərəfindən hər il on milyonlarla manat sərmayələr yatırılıb. Təkcə, 2023-cü il ərzində yalnız Bakı şəhərində 200-dən çox avtobus istismara verilib, ilin sonuna kimi 160 elektrik avtobusunun sərnişinlərin xidmətinə verilməsi planlaşdırılır. Xidmət səviyyəsinin yüksəldilməsi, daha rahat və sürətli daşınmanı təmin etmək məqsədilə Bakıda 21 küçə və prospektdə uzunluğu 65 km olan xüsusi avtobus zolaqları təşkil edilib. Avtobus zolaqlarının davamlılığının təmin edilməsi, həmçinin yaşayış məntəqələri və mühüm nəqliyyat dəhlizlərini



əhatə edən zəncirvari şəbəkənin təşkili üçün bu il daha 31 küçə və prospekti əhatə edən 44 kilometr uzunluğunda avtobus zolaqlarının təşkili həyata keçiriləcək. Bundan başqa, Bakı şəhərinin mobillik imkanlarının yaxşılaşdırılması və ictimai nəqliyyatın əlçatanlığının təmin olunması məqsədilə yeni marşrut şəbəkəsi təsdiq edilib, yaxın günlərdə Hövsan, Mərdəkan və Şüvəlan qəsəbələrində fəaliyyət göstərəcək 5 yeni marşrut olmaqla bu şəbəkənin tətbiqinə başlanılacaq.

Respublikanın bölgələrində daşıyıcı şirkətlərin maddi resurs imkanları zəif olduğundan dövlət bu istiqamətlərdə də nəqliyyat xərclərinin böyük hissəsini də öz üzərinə götürüb. Bakıdan Gəncə, Mingəçevir, Zaqatala, Bərdə və Tərtər istiqamətlərində yeni avtobuslar istifadəyə verilib və bu proses davam edir. Metro nəqliyyatına gəlincə, bu sektorda infrastrukturun əsaslı yenilənməsi və yeni stansiyaların tikilməsi işləri son illərdə daha geniş vüsət alıb və dövlətin 200 milyon manatdan çox sərmayəsi təmin olunub. Bu vəsaitlər hesabına, ümumilikdə, 65 yeni vaqon sifariş edilib, bu vaqonlardan 35 ədədinin bu ilin sonuna qədər ölkəyə gətirilməsi nəzərdə tutulur.

Bütün bunlar dövlətin nəqliyyat siyasətində sosialyönümlülük prinsipinə daha çox önəm verdiyini göstərir, özəl daşıyıcıların da xərclərinin bir hissəsini öz üzrəinə götürdüyünü təsdiqləyir. Ancaq hazırda dünyada nəqliyyat avadanlıqlarının və vasitələrinin bahalaşması müşahidə edilir, ölkəmizin xarici dövlətlərdən idxal etdiyi mal-material və avadanlıqlar, avtobus və metro vaqonları, eləcə də təmir üçün nəzərdə tutulan xərclər artır, dövlət bu xərcləri öz gücünə qarşılayır, ancaq özəl sektoru təmsil edən şirkətlər bunun öhdəsindən gələ bilmir və nəticədə onlar köhnə tariflərlə heç bir təmir və yeniləmə apara bilmir. Bu baxımdan tarif dəyişikliyi onların xərclərinin optimallaşmasına və avtobus parklarının yenilənməsinə, yeni sərmayələr yatırmaqla xidmətin keyfiyyətinin artırılmasına əsaslı baza yaratmış olacaq.

Tarif dəyişikliyinin tətbiq edildiyi digər sahədə - Bərk Məişət Tullantılarının yığılması, daşınması və zərərsizləşdirilməsi xidmətləri üzrə tariflər də mövcud xidmətlərin göstərilməsində uyğunsuluq yaradırdı, bu sahədə xidmət göstərən nəqliyyat vasitələrinin, avadanlıqların yenilənməsinə imkan vermirdi. Həmin sahədə tariflər sonuncu dəfə 13 il əvvəl, 2011-ci ildə müəyyən olunmuşdu və bu dövr ərzində ölkədə tullantıların yığılması, daşınması üçün nəqliyyat vasitələri yenilənsədə, şəhər və qəsəbələrdə tullantıların saxlanılması və çeşidlənməsi üçün konteynerlər müasirləşsə də, bu sahə də rentabelli fəaliyyətin qurulması mümkün olmurdu. Dövlətin dotasiyaları hesabına bu sahəni uzunmüddətli idarə etmək mümkün deyildi, xüsusilə də büdcədən ayrılan subsidiyanın ayrılması ilə tariflərin aşağı səviyyədə saxlanılması əhali və qeyri-əhali abonentlərinin uçotunun təşkili və yığımla əlaqədar problemlərə gətirib çıxarır, büdcədən əhəmiyyətli dərəcədə asılılıq dövlət tənzimlənməsinin təkmilləşdirilməsi siyasətinə mane olurdu. Ona görə də qeyd edilən səbəblər bu sahədə yeni tənzimləməni labüd idi. Tarif dəyişikliyindən sonra əhali üzrə 1 nəfərin aylıq xərci 70 qəpik artacaq ki, bu da bir günlük 2,3 qəpik deməkdir. Digər ölkələrdə bu sahədə tariflərlə müqayisə aparaq. Məsələn, əhali qrupu üzrə Rusiyada 9 manat/kub metr, Qazaxıstanda 2 manat/nəfər/ay, Gürcüstanda 1,6 manat/nəfər/ay, Belarusda 7-8,3 manat/kub metr, qeyri-əhali qrupu üzrə Rusiyada 16-20 manat/kub metr, Qazaxıstanda 7 manat/kub metr, Gürcüstanda 9,5 manat/kub metr, Belarusda 8,4-16,6 manat/kub metr arasında dəyişir.

Göründüyü kimi kommunal sektorun əsas bölmələrindən biri olan məişət tullantılarının daşınması xərclərinin bahalaşması sayəsində bu sahədə də dayanıqlı və keyfiyyətli xidmət göstərilməsinə imkan yaranacaq.

Tarif dəyişikliyinin edildiyi digər sahə olan dərman vasitələrinin qiymətində tənzimləmələr də sosial əhəmiyyət kəsb edir və etibarlı təchizatın yaradılması məqsədi daşıyır. Belə ki, müvafiq tənzimləmələrdən sonra yeni dövlət qeydiyyatına alınan 115 dərman vasitəsinin qiymətinin yuxarı həddi təsdiq edilib və etibarlı təchizatın təmin olunması məqsədilə 62 dərman vasitəsinin qiymətinin yuxarı həddində dəyişikliklər aparılıb.

***Məhəmməd***

# Uyğunsuzluq aradan qaldırıldı

“Əmək pensiyaları haqqında” qanuna edilmiş dəyişikliyə əsasən, Azərbaycanda bir sıra vəzifəli şəxslərin qulluq stajına görə əmək pensiyasına əlavələrin hesablanması qaydası dəyişib. Belə ki, əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş sabiq deputatlar, eləcə də Mərkəzi Seçki Komissiyasının (MSK) üzvü kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olanlar, İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) və Hesablama Palatasının üzvü kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan şəxslər bu dəyişikliklərdən faydalanacaqlar. Bu qərar, Naxçıvan Muxtar Respublikası MSK üzvlərinə, Naxçıvan Ombudsmanı kimi azı səlahiyyət müddətinin yarısı qədər sığorta stajı olan şəxslərə, eləcə də Naxçıvan Hesablama Palatasının üzvlərinə də şamil olunacaq.

Qeyd edək ki, indiyə qədər qüvvədə olan qanuna görə, sabiq deputat, MSK üzvləri və Ombudsmanın, HP üzvlərinin pensiyası ilə bağlı müəyyən uyğunsuzluqlar var idi. Həmin uyğunsuzluqların aradan qaldırılması məqsədilə “Əmək pensiyaları haqqında” qanunun 20.1.1-ci, 20.1.3-cü, 20.1.6-cı və 20.1.16-cı maddələrinə edilmiş dəyişikliklə, həmin şəxslərin də qulluq stajına görə əmək pensiyasına əlavələr həmin şəxslərin orta aylıq əməkhaqları, son 12 ay ərzində müvafiq vəzifələr üzrə aldığı vəzifə maaşının və məcburi dövlət sosial sığortasına cəlb edilən bütün ödənişlərin cəminin 12-yə nisbəti yolu ilə müəyyən edilməsi nəzərdə tutulub. Dəyişikliyə görə, həmin kateqoriyadan olan şəxslərin əmək pensiyasına qulluq stajına görə əlavənin müəyyən edilməsi üçün orta aylıq əməkhaqqının hesablanmasına vahid yanaşma tətbiq olunacaq.

Bundan əlavə, layihəyə əlavə edilmiş keçid müddəaya əsasən həmin şəxslər bu Qanunun qüvvə-




yə mindiyi tarixədək 20.1.1-ci, 20.1.3-cü, 20.1.6-cı və 20.1.16-cı maddələrdə nəzərdə tutulmuş sığorta stajını topladığı halda onlara əvvəlki normalar tətbiq olunacaq. Bu dəyişiklik də qanunun 20-ci maddəsində yarım maddələr arasında uyğunluğu təmin edəcək və hər hansı əlavə maliyyə yükü yaratmayacaq.

Həmçinin pensiya qanunvericiliyinə edilmiş dəyişikliyə əsasən, qeyd edilən sosial qrupların əlilliyi ilə bağlı yeni tənzimlər qüvvəyə minir. Belə ki, 2024-cü il iyulun 1-dən əmək pensiyası yaşına çatmış və ya bu yaşa çatanadək orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş sabiq deputatlara səlahiyyət müddəti ərzində müvafiq vəzifə üzrə aldığı əməkhaqqının orta aylıq məbləğinin 80 faizi miqdarında pensiya təyin ediləcək. 2024-cü il iyulun 1-dən pensiyaya əlavələrin təyinatında pensiya təyinatı tarixinədək əmək haqqındakı sonrakı artımlar da nəzərə alınacaq. Bu yanaşma yuxarıda qeyd olunan MSK, Ombudsman və Hesablama Palatasının üzvlərinə münasibətdə də şamil olunacaq.

Ancaq bir məsələ var ki, qanuna dəyişikliklər məhkəmənin qanuni qüvvəyə minmiş hökmü əsasında deputat mandatından məhrum edilmiş, həmçinin Milli Məclisin, eləcə də Naxçıvan MR Ali Məclisinin iclaslarında üzrsüz səbəbdən iştirak etmədiyinə görə deputat səlahiyyətlərini itirmiş deputatlara şamil olunmayacaq.

Ümumilikdə, son aylarda pensiya qanunvericiliyinə edilmiş bir sıra dəyişikliklər əsas etibarilə qulluq stajına görə əmək pensiyalarına əlavələrin hesablanması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsini özündə ehtiva edir. Bu prinsiplər isə sosial sığorta prinsiplərinin dərinləşməsi, sosial ədalətin təmin olunması, pensiya təminatının avtomatlaşdırılması və sosial müdafiə sisteminin dayanıqlılığının artmasına xidmət etməklə, əmək pensiyası hüququ yaranmış şəxslərin rifahının artmasında əhəmiyyətli rol oynayır.

*Elbrus*

# Hərbi xidmətə çağırışla bağlı

## Yeni qərar qüvvəyə mindi
## Neqativ halların qarşısı alınacaq!

Dünəndən etibarən çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınmasına başlanılıb. Bundan başqa, hərbi xidmətə çağırışla bağlı yeni qərar da qüvvəyə minib. Proses iyulun 30-da bitəcək.

Məlumdur ki, 2023-cü ildə Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, hərbi xidmətə çağırışla bağlı yeni qaydalar müəyyənləşib. Fərmanda qeyd olunmuşdu ki, həmin qaydalar iyulun 1-dən qüvvəyə minəcək.



Hazırkı qaydalara əsasən, hərbi xidmətə çağırılan çağırışçılar ilkin olaraq hərbi komissarlıqlarda müayinədən keçirilir, digər zəruri hallarda isə müalicə müəssisələrində müayinədən keçirilər. Yəni nəticə olaraq şəxsin hərbi xidmətə yararlı olub-olmaması ilə bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nəzdində olan hərbi həkim komissiya qərar verirdi.

Ancaq Səfərbərlik xidmətinin hərbi həkim komissiyası daha bu qərarı verə bilməyəcək. Həmin yekun tibbi müayinə Nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən hərbi həkim komissiyalarının tibbi müayinə nəticələri və müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların əyani tibbi müayinəsi əsasında aparılacaq.

Qeyd edək ki, ötən dövr ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində islahatlar aparılır. Hərbi xidmətə çağırışdan boyun qaçırma hallarına qarşı Baş Prokurorluq tərəfindən mütəmadi olaraq müvafiq dövlət qurumları ilə birgə mübarizə davam etdirilir.

Məsələ ilə bağlı “Yeni Azərbaycan”a açıqlama verən hərbi ekspert Ədalət Verdiyev bildirib ki, yeni qərar hərbi xidmətdə bir sıra neqativ halların qarşısını alacaq. Ekspertin sözlərinə görə, rayon və şəhər çağırış şöbələri, kommisiyaları heç bir halda təkbaşına hərbi çağırış yaşına çatmış vətəndaşlara yaralılıq və möhlətlə bağlı qərar verə bilməyəcək: “Bu, silahlı qüvvələrimizin hərbi xidmətə yararlı və sağlam heyyətlə təmin olunması baxımından çox mühüm rol oynayacaq. Daha əvvəlki illərdə “yararsız” hesab edilən 100-lərlə çağırışçı artıq bu gün ordu sıralarında xidmət edirlər. Keçən çağırışda onların sayı təxminən 500-dən artıq idi və aralarında 30-32 yaşından yuxarı olan vətəndaşlarımız da mövcud idi. Digər tərəfdən isə əvvəlki illərdə mövcud olan neqativ hallar barədə son zamanlar həm Baş Prokurorluq, həm də səfərbərlik xidməti tərəfindən kifayət qədər ciddi məlumatlar dərc olunur”.

Ekspert ƏƏSMN-ə böyük ümidlərin olduğunu söyləyib: “Hərbi xidmətə çağırışla bağlı 4 kateqoriya var: yararlı, məhdud yararlı, sülh dövründə və müharibə dövründə yararlı. Bütün bu yararlılıq dərəcələrini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) təyin edəcək. Nazirliyin tabeliyindəki Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi bu prosesdə daha obyektiv olacaq”.

*Yeganə BAYRAMOVA*

# Dünya üçün həyəcan təbili

**Cari ilin noyabrında ölkəmizin ev sahibliyi edəcəyi COP29 konfransı ilə bağlı hazırda bütün dünyada geniş müzakirələr aparılır. BMT-nin ən irimiqyaslı tədbirlərindən sayılan beynəlxalq iqlim konfransının Bakı gündəliyindən gözləntilər kifayət qədər böyükdür. Müxtəlif dövlətlərin və beynəlxalq təsisatların yüksəksəviyyəli rəsmilərinin ifadə etdikləri fikirlərdən bir daha aydın olur ki, paytaxtımızda müzakirələrin hansı istiqamətdə aparılacağı və hansı qərarların qəbul olunacağı həssaslıqla izləniləcək. Elə bu günlərdə BMT-nin Baş katibi Antonio Quterreş TASS agentliyi baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində COP29-la bağlı bir sıra mühüm məqamlara yenidən diqqət çəkib.**

## Qətiyyətli addımlar atılmalıdır

Qlobal təhdidlər beynəlxalq həmrəyliyin möhkəmləndirilməsi yolu ilə aradan qaldırılmalıdır. İndiyədək BMT-nin qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədləri sənədi, Kioto protokolu, Paris razılaşması əsas tutulmaqla beynəlxalq səviyyədə iqlim dəyişmələri ilə mübarizədə bir sıra zəruri tədbirlər görülüb, o cümlədən ölkələr milli səviyyədə öz öhdəliklərini müəyyənləşdiriblər. Artıq qəbul olunur ki, hər bir dövlət enerji transformasiyalarına, atmosferə buraxılan emissiyaların azaldılmasına öz töhfələrini verməlidirlər.

Ancaq görülən tədbirlər yetərli deyil. İqlim dəyişmələrinin fəsadlarının yaratdığı təhdidlər görülən mübarizə tədbirlərini böyük ölçüdə üstələyir. Qəbul olunmuş reallıq budur ki, qlobal istiləşməni 1,5 C° səviyyədə saxlamaq məqsədilə beynəlxalq ictimaiyyətin səylərini səfərbər edərək birgə təcili tədbirlərin görülməsi və təxirəsalınmaz addımların atılması üçün vaxt ötən hər gün daha da azalır. Dünyadakı mövcud reallığı nəzərə alan A.Qutteres vurğulayıb ki, noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəfləri Konfransının 29-cu sessiyasında (COP29) qətiyyətli addımlar atılmalıdır, əks halda, dünya uçuruma yuvarlanacaq. Özünün də iştirak etməyi planlaşdırdığı iqlim konfransından bəhs edən Baş katib ümidvar olduğunu bildirib ki, məhz bu tədbir planetin uçuruma doğru hərəkət etməsi həqiqətinin etiraflı kontekstində dönüş məqamı olacaq. O deyib: “Son 12 ayın hər biri əvvəlkindən daha isti olub. Alimlər ilk dəfə qeyd edirlər ki, yaxın bir neçə ildə bizdə 1,5 dərəcədən çox qlobal istiləşmə müşahidə oluna bilər və bu, təbii ki, vəziyyətin dön-



məzliyi anlamına gəlmir. Xeyr, demək istəyirəm ki, 1,5 dərəcə məqsədi uzunmüddətli hədəfdir”.

## İnkişaf etməkdə olan ölkələrin maraqları nəzərə alınmalıdır

Kiçik ada dövlətlərinə praktiki müstəvidə dəstək verilməsi, onlara maliyyə vəsaitlərinin yönəldilməsi COP29 gündəliyinin əsas mövzularından biri kimi müəyyənləşdirilib. A.Quterrəş öz müsahibəsində kiçik ada dövlətlərinin üzləşdikləri çətinliklərdən ətraflı bəhs edib. “Ancaq biz tarixin çox dramatik anındayıq. İstərdim ki, bu konfransda bəzi qətiyyətli tədbirlər görülsün, amma yenə də iqlim ədaləti çərçivəsində; iqlim dəyişikliyinə töhfə verməyən, lakin ondan çox əziyyət çəkən inkişaf etməkdə olan ölkələrin maraqları nəzərə alınsın. Bu, həm dəniz səviyyəsinin yüksəlməsi amilindən təsirlənən kiçik adalara, həm də quraqlığın icmalara dağıdıcı təsir göstərdiyi Afrika ölkələrinə aiddir”, - deyə Baş katib vurğulayıb.

Xatırladaq ki, bundan əvvəl A.Qutterreş hamını 2030-cu ilə qədər dənizin dibinin 80 faiz öyrənilməsi hədəfinə qoşulmağa çağırıb. Onun verdiyi məlumata əsasən, okeanlara hər il 8 milyon tona yaxın plastik tullantı düşür. Qəti tədbirlər görülməsə, 2050-ci ildə okeanda plastik maddələrin miqdarı balıqlardan çox olacaq.

*MÜBARİZ*

# Paytaxtda mühüm tədbir...

## “Baku ID” festivalı İKT-nin inkişafına dəstək verəcək

Bu günlərdə paytaxtımızda Azərbaycanın və regionun əsas startap innovasiya tədbiri olan “Baku ID” innovasiya festivalı keçirildi. Tədbirdə 200-dən artıq yerli və xarici investor, 100-dən artıq xarici və yerli startap, 5000 iştirakçı və 50-dən artıq tərəfdaş iştirak edib. Tədbir çərçivəsində Süni İntellekt üzrə panel sessiyası təşkil olunub. Qeyd edək ki, tədbir “SABAH.HUB” İnnovasiya Mərkəzinin dəstəyi ilə baş tutub.

**100 min dollarlıq yardım...**

Festivalda qlobal texnologiya şirkətlərindən olan spikerlərin çıxışları, region startaplarının təqdimat çıxışları, networking və digər maraqlı müzakirələr aparılıb. Panel sessiya informasiya və analitik agentlik olan “East-West Digital News”un həmtəsisçisi, Fransa və Şərqi Avropada texnologiya və vençur kapitalı sektorlarında 20 illik təcrübəyə malik Adrien Henneyin moderatorluğu ilə keçib. Sessiyada investorlara, startaplara və digər təşkilatlara ətraflı məlumatlar verilib. Festivalın sonunda səmərəli startap layihə təqdim edən 10 startapa sponsorlar tərəfindən 100 min dollar məbləğində maliyyə dəstəyi göstərilib.

**Anlaşma Memorandumu imzalandı**

Festivalda “SABAH.Hub” İnnovasiya mərkəzi və İqtisadiyyat Nazirliyi tabeliyindəki IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) arasında Anlaşma Memorandumu imzalanıb. Memorandum çərçivəsində rəqəmsal iqtisadiyyatın inkişafı üçün elm və sənaye klasterinin yaradılması istiqamətində birgə səylərin davam etdirilməsi planlaşdırılır.

Memorandumu 4SİM-in icraçı direktoru Fariz Cəfərov və SABAH.HUB-ın baş icraçı direktoru Rəhim Bayramlı imzalayıblar. Anlaşma memorandumunun məqsədi Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı çərçivəsində yerli startap ekosisteminin inkişafına dəstək göstərilməsi və bu sahədə əməkdaşlıqdır.

Memoranduma əsasən, tərəflər ölkədə innovasiya ekosisteminin inkişafı, süni intellekt fokuslu beynəlxalq və yerli universitetlərlə ikili diplom proqramlarının təsis olunması, təcrübəli insan kapitalının ölkəyə cəlb olunması, tədqiqat və təlim proqramları sahəsində əməkdaşlıq edəcəklər. Sənəd, həmçinin Dünya İqtisadi Forumunun (DİF) “Qlobal İnnovatorlar” icması ilə oxşar təcrübənin ölkədə tətbiqi ilə bağlı əməkdaşlığı ehtiva edir.

**Kosmik sahədə təxirəsalınmaz çağırışlar**

Festivalda çıxış edən ilk türk astronavt və hərbi pilot Alper Gezeravcı bildirib ki, kosmik sahədə təxirəsalınmaz çağırışlara hazır olmaq qarşıda duran əsas vəzifələrindəndir. Həyatının son 23 ilinin kosmosda baş verə biləcək bütün hadisələrə hazırlıqla keçdiyini diq-



qətə çatdıran hərbi pilot ötən keçirilmiş 74-cü Beynəlxalq Astronavtika Konqresindən də söz açıb: “Azərbaycan paytaxtının bu sahə ilə bağlı tədbirlər keçirməsi kosmik sektorun inkişafına təkan verir. Biz astronavtların da missiyalarından biri gənclərə kosmik sahə barədə məlumat vermək, maraq yaratmaq və sevdirməkdir”.

**Daha güclü kosmik şəbəkə peyki istehsal ediləcək**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentliyin (“Azərkosmos”) İdarə Heyətinin sədri Samədin Əsədov bildirib ki, Azərbaycan Kosmik Agentliyi yaxın illərdə müstəqil Azərbaycan üçün ilk dəfə peyk istehsal etməyi qarşısına məqsəd qoyub. Onun sözlərinə görə, istehsal edilən peyk kiçikölçülü olmayacaq: “Biz daha güclü kosmik şəbəkə peyki istehsal edəcəyik. Azərbaycan Kosmik Agentliyi yeni ideyalar və təşəbbüslər istiqamətində əməkdaşlığa etməyə hazırdır”.

**2026-cı və 2028-ci illərdə...**

Xatırladaq ki, ötən il “Azərkosmos” və “Israel Aerospace Industries” (IAI) şirkəti arasında Azərbaycanın yeni müşahidə peyklərinin hazırlanması üzrə əməkdaşlıq müqaviləsi imzalanmışdı. Müqaviləyə əsasən, “Azersky-2” proqramı çərçivəsində iki peyk hazırlanacaq. Bunlar yüksək ayırdetməli elektro-optik sensora malik müşahidə peykləri olacaq. Peyk qruplaşmasının ilk peykinin layihələndirilməsi, yığılması, inteqrasiyası və sınağı Azərbaycanlı mütəxəssislərin iştirakı ilə IAI tərəfindən aparılacaq.

İsrailli mütəxəssislər həmçinin, Azərbaycanda qurulacaq “Peyklərin inkişafı mərkəzi”nin layihələndirilməsində də “Azərkosmos”a dəstək verəcək.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır

Azərbaycanlı mütəxəssislərin əldə etdiyi təcrübə isə ikinci peykin Azərbaycanda hazırlanmasına imkan verəcək.

IAI proqram çərçivəsində “Azersky-2” sisteminin idarəedilməsi və istismarı üzrə Azərbaycanda bütün lazımi yerüstü sistemləri təmin edəcək. Peykə nəzarət və peyk təsvirlərinin emal olunmasına dair yerli mütəxəssislərə təlim keçiləcək. Peyklər 2026-cı və 2028-ci illərdə orbitə buraxılacaq.

*Yeganə BAYRAMOVA*

# Hindistandan Helsinki limanına...

## Rəşt-Xəzər dəmir yolu Şimal-Cənub dəhlizinə inteqrasiya üçün yeni imkanlar vəd edir

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsi olan Rəşt-Xəzər dəmir yolu xətti bir neçə gün əvvəl İranın dövlət rəsmilərin iştirakı ilə istifadəyə verilib. Xəzər dənizi ilə Fars körfəzini birləşdirən Rəşt-Xəzər dəmir yolu xətti müasir nəqliyyat arteriyaları içərisində mühüm qovşaqlardan biri olmaqla, həm böyük bir coğrafiyada daşınmaların həyata keçirilməsi, həm də 10-dan artıq ölkə arasında idxal-ixrac əməliyyatları üçün xüsusi əhəmiyyət daşıyır. Bu yol gələcəkdə Rəşt-Xəzər-Qəzvin-Rəşt-Astara-Astara (İran və Azərbaycan) dəmiryollarına birləşərək Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tam formalaşmasının təmin edilməsində mühüm rol oyanayacaq.

Ümumilikdə, Rəşt-Astara tranziti Hindistandan gələn yüklərin İran və Azərbaycan üzərindən Rusiyaya nəqlini nəzərdə tutur. Belə ki, Mumbaydan İranın Çabahar limanına gətirilən yüklərin oradan dəmir və avtomobil yolu ilə Xəzər sahillərinə və oradan isə Rusiyaya çatdırılması dəniz yolu ilə nisbətdə həm vaxt, həm logistika imkanları, həm də xərc baxımından daha sərfəlidir. Ona görə də, bu dəhlizə son vaxtlarda xüsusi maraq artıq və infrastrukturların daha da tez yaradılaraq istifadəyə verilməsi planlaşdırılır.



Astara-Rəşt-Qəzvin nəqliyyat dəhlizinin yaradılmasının əsas təşəbbüskarı Azərbaycan, İran və Rusiyadır ki, 3 ölkə hazırda öz dəmir yollarını birləşdirəcək qovşaqların texniki-fiziki imkanlarını tam hazır vəziyyətə gətirməyə çalışır. Bu dəhlizin bir hissəsi olan Rəşt-Astara bölgə üçün xüsusi əhəmiyyət daşıyır. Azərbaycan və İran arasında Rəşt-Astara dəmir yolunun tikintisinə dair ötən il razılıq əldə olunub və Astara stansiyasından İranın Astara şəhərinə qədər dəmir yolu artıq inşa edilib, hazırda dəhlizboyu daşımaların əsas hissəsi yük maşınlarından istifadə etməklə həyata keçirilir.

Növbəti mərhələdə İran və Azərbaycan dəmir yollarının tam birləşdirilməsi üçün çatışmayan 167 km uzunluğundakı Astara-Rəşt dəmir yolunun tikintisini reallaşdıracaq. Perspektivdə Astaradan gələn xətt üzərində əlavə infrastruktur təminatlarının yaradılması, daşıyıcı qatarların yenilənməsi, magistral dəmiryolunun genişləndirilməsi və Ələt-Astara hissəsinin elektrikləşdirilməsi də nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycanın dəmir yolu xətləri Avropaya, Orta Asiyayadək uzanır. Ona görə də, Qəzvin-Rəşt-Ənzəli-Astara dəmir yolu xəttinin Azərbaycan dəmir yollarına birləşdirilməsi İranda dəmir yolu sahəsində ticarətin inkişafı baxımından olduqca əhəmiyyətlidir. "Şimal-Cənub" dəmir yolu dəhlizinin yaranmasından sonra yükdaşıma xərcləri xeyli azalacaq və bu, hər iki ölkənin maraqlarına cavab verir. İran da öz növbəsində, bu layihənin mümkün qədər tez reallaşmasına çalışır.

Böyük əhəmiyyətə malik olan bu dəmir yolu xətti Qəzvin-Rəşt-Ənzəli-Astara marşrutu ilə Azərbaycanın dəmir yolu xəttinə qoşulacaq və bununla da o, beynəlxalq əhəmiyyətli dəmir yoluna çevriləcək. Bütün işlər yekunlaşandan sonra, Skandinaviya ölkələri, Rusiya, Azərbaycan və İranın dəmir yolları bir şəbəkədə birləşəcək və Şimaldan İran körfəzinə qədər vahid dəmir yolu formalaşacaq. Hindistandan Avropanın Helsinki limanınadək olan 5200 kilometrlik dəmir yolu xətti yaranacaq. Bu, təbii ki, beynəlxalq dəmir yolu xəttinə çevrilməklə, yüklərin daşınma müddətinin 45 gündən 20 günədək azalmasına, məsafənin isə təxminən 3 min kilometr qısalmasına səbəb olacaq. Ən əsası isə Fars körfəzindən Azərbaycan və Rusiyaya malların daşınması sadələşəcək.

Bu isə onu göstərir ki, Şimal-Cənub dəhlizi böyük coğrafi hüdudları əhatə etməklə əsas nəqliyyat arteriyalarından birinə çevriləcək. Bu baxımdam son illərdə Şimal-Cənub nəqliyyat dəhlizi region ölkələri üçün öz strateji əhəmiyyətini daha da artırır və 13 ölkə artıq bu layihədə birləşib. Orta-Mərkəzi Asiya ölkələri üçün də xüsusi maraq doğuran dəhlizin daşınmalar imkanları nəzərə alınaraq tranzit tariflərinin yumşaldılması təklif olunur. Dəhlizdə güzəştli ticarət rejiminin yaradılması, sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələrinin sərhəddən keçməsi prosesinin, gömrük yoxlaması və sənədlərin rəsmiləşdirilməsi qaydasının asanlaşdırılması nəzərdə tutulur.

*ELBRUS*

# Seçkilər ikinci tura qaldı

## Birinci turda Pezeşkianın qələbə qazanması Ermənistanı narahat edib

İyunun 28-də İran İslam Respublikasında baş tutan növbədənkənar prezident seçkiləri gərgin mübarizə şəraitində keçdi. Bəzi siyasi analitiklər seçkinin nəticələrini gözlənilməz saysa da, birinci turda qələbə qazanan "islahatçı namizəd" Məsud Pezeşkian seçkiyə qədərki bütün sorğularda yüksək faizlə öndə olmuşdu. Qeyd edək ki, seçkinin nəticələrinə görə, 24 milyon 535 min 185 səs hesablandıqdan sonra Pezeşkian 10 milyon 415 min 991 səs, Cəlili 9 milyon 473 min 298 səs toplayıb, digər namizəd Məhəmməd Bağer Qalibaf isə 3 milyon 383 min 340 səs toplayıb.

İranın Seçki Qərargahının nümayəndəsi Möhsün Eslami bildirib ki, 14-cü prezident seçkilərinin ikinci turu iyulun 5-də keçiriləcək. İkinci turda mübarizə Məsud Pezeşkian və Səid Cəlili arasında gedəcək. İki namizəd arasındakı "deulə" qədər isə teledebatlar baş tutacaq.

Xatırladaq ki, seçkilərin birinci turunda qalib gəlmək üçün namizəd 50 faizdən çox səs toplamalı idi - heç bir namizəd bu baryeri aşa bilmədiyi üçün seçki ikinci tura qalır. Digər namizədlər isə artıq ikinci turda mübarizədən kənarda qalacaq. Düzdür, birinci turda Pezeşkian açıq üstünlük qazansa da, bu qalibiyyətini ikinci turda da reallaşdırması çətin olacaq. Çünki birinci turda məğlub olan digər namizədlər - parlament sədri Məhəmmədbağır Qalibaf və sabiq daxili işlər və ədliyyə naziri Mustafa Purməhəmmədi Cəlilini dəstəkləyir. Hətta seçkiyə qədər namizədliyi qeydə alınmış, sonradan marafondan könüllü şəkildə çəkilmiş digər iki namizəd - Əmir Hüseyin Qazizadə-Haşimi və Tehran meri Əlirza Zəkani də öz namizədliklərini məhz mühafizəkar namizədlərin lehinə geri çəkdiklərini bəyan etmişdilər.

Vurğulayaq ki, hazırda İran prezidentliyinə namizəd olan əslən azərbaycanlı Məsud Pezeşkiyan 1954-cü ildə İranın Mahabad vilayətində doğulub. Tibbi təhsilə malik Pezeşkian Təbriz Tibb Elmləri Universitetinin rektoru olub. İslahatçı prezident Məhəmməd Hatəminin




birinci prezidentliyi dövründə səhiyyə nazirinin müavini, ikinci dövründə isə səhiyyə naziri postunu tutan Pezeşkian bir sıra addımları ilə şöhrət qazanıb. Xüsusilə, kəndlərdə tibb xidmətlərinin yaxşılaşdırılması ilə bağlı layihələri onun hazırkı qələbəsinin əsas təməli sayılır. Qeyd edək ki, bəzi keçmiş İran siyasətçiləri - Əli Laricani, Cavad Zərif və Məhəmməd Hatəmi bu seçkilərdə Pezeşkianı dəstəklədiklərini bildiriblər.

Təhlükəsizlik Şurasının keçmiş katibi, nüvə danışıqları qrupunun rəhbəri Səid Cəlili isə digər namizədlərin də favoritinə çerilib. 1965-ci ildə Məşhəddə doğulan Cəlili siyasi elmlər üzrə təhsil alıb. O, İranın ali dini liderinin ofisində çalışıb. Hazırda Məsləhət Şurasının üzvüdür. Bundan öncə də dövlət başçısı olmaq uğrunda mübarizə aparan Cəlili bütün hallarda məğlub olub - Rəisinin seçildiyi 2021-ci il seçkilərində namizədliyini mərhum dövlət başçısının xeyrinə geri götürüb.

Yeri gəlmişkən, İrandakı seçki prosesi Ermənistanda da ciddi şəkildə izlənilir. Birinci turda azərbaycanlı əsilli namizədin qələbə qazanması sosial şəbəkələrdə geniş müzakirə edilir - Pezeşkianın ikinci turda da qələbə qazanacağını Ermənistan cəmiyyəti özü üçün "faciə" sayıb. Hətta erməni əsilli iranlı ekspert Janna Vardanyan bildirib ki, Məsud Pezeşkianın qələbəsi Ermənistan üçün arzuolunmazdır. O deyib ki, İranın islahatçı qanadına aid olan M. Pezeşkian etnik azərbaycanlıdır və o, keçmişdə bir sıra anti-erməni bəyanatlar verib. Janna Vardanyan deyib ki, Pezeşkian Qarabağ münaqişəsi kontekstində hər zaman Azərbaycanı dəstəkləyib: "Ermənistan üçün hazırkı seçkilər, o cümlədən Pezeşkianın etnik mənşəyini nəzərə almaqla, vacibdir. Yarışın favoritlərindən biri azərbaycanlıdır ki, bunu özü də gizlətmir. Siyasətçi dəfələrlə kifayət qədər problemli və ziddiyyətli bəyanatlar verib ki, bu da İranda bir çoxlarının onu separatçı istəklərdə və hətta pantürkist ideyaları müdafiə etməkdə ittiham etməsinə səbəb olub. Bundan əlavə, Pezeşkian seçki kampaniyası zamanı dəfələrlə etnik kart oynayıb, türkdilli qruplara kifayət qədər loyal bəyanatlar verib, Şərqi Azərbaycan vilayətində türk məktəblərinin açılmasına çağırıb və s. Pezeşkian deputat olarkən bir neçə dəfə, o cümlədən Qarabağ münaqişəsi kontekstində ermənilər əleyhinə bəyanatlar verib. Bu baxımdan bu siyasətçinin seçkilərdə qalib gəlməsi erməni tərəfi üçün arzuolunmaz ssenaridir".

*SADİQ*

# Macarıstan Aİ-nin sədri kimi...

## Viktor Orban Avropanı yenidən möhtəşəm edə biləcəkmi?

İyulun 1-də Avropa İttifaqına sədrlik Macarıstana keçib. Bu ölkə Avropa İttifaqı rəhbərliyi ilə bir sıra məsələlər, o cümlədən Rusiya ilə Ukrayna arasındakı münaqişə, eləcə də miqrasiya məsələləri üzrə ciddi fikir ayrılıqları fonunda Aİ-yə altı aylıq sədrliyə başlayıb. Belə ki, rəsmi Budapeşt ötən gün estafeti Belçikadan təhvil alıb, dekabrın sonunda isə rotasiya qaydasında onu Polşaya ötürəcək.

Budapeştlə Brüssel arasında formalaşan mürəkkəb münasibətlər hətta Macarıstanın sədrliyi dövründə "Avropanı yenidən möhtəşəm edək!" şüarının seçilməsində də özünü göstərib. Bəzi xarici ekspertlərin fikrincə, bu şüar Avropa İttifaqının hazırkı rəhbərliyinin dəstəkləmədiyi, lakin Macarıstanın Baş naziri Viktor Orbanın müsbət yanaşdığı ABŞ-ın sabiq Prezidenti Donald Trampın seçkiqabağı devizinə bənzəyir. Budapeştin sədrliyinin rəsmi loqosu "Rubik kubu"dur, onun bir tərəfində Macarıstanın



qırmızı, ağ və yaşıl rəngli dövlət bayrağı, digər tərəfində isə dairədə düzülmüş ulduzlar şəklində Avropa İttifaqının gerbi təsvir edilib. Loqodakı "Rubik kubu" ixtiraları ilə məşhur olan macar mühəndis Ernyö Rubikə həsr olunub. Sədrliyin saytında qeyd edildiyi kimi, "Rubik kubu" strateji baxış, səbir, nizam-intizam və dəqiqlik, yəni Macarıstanın Aİ Şurasına sədrliyi üçün vacib olan keyfiyyətləri ehtiva edir.

Baş nazir Viktor Orban Avropa İttifaqına sədrliyi dövründə Macarıstanın prioritetlərini də açıqlayıb. O bildirib ki, sədrliklə bağlı 7 maddədən ibarət proqram qəbul olunub: "Proqramın əsas müddəası Ukraynada müharibənin dayandırılmasından ibarətdir. Çünki hazırda orada baş verənlər ittifaq daxilində nəzərdə tutduğumuz prioritetlərin həyata keçirilməsinə maneə yaradır". Ölkənin Avropa İttifaqı işləri üzrə naziri Yanoş Boka isə vurğulayıb ki, diqqət yetiriləcək daha bir məsələ ittifaq ölkələrinin təhlükəsizliyi, müdafiə sənayesi potensialının güclənməsi, bu sahədə əməkdaşlıq imkanlarının müzakirəsi, eləcə də iqtisadiyyatın yeni çağırışlara uyğunlaşdırılmasından ibarətdir. Y. Boka, həmçinin Avrozonada rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşmasını da vacib saydıqlarını deyib. Nazirin qənaətincə, bu sahədə mütərəqqi qanun qəbul edilməlidir. Qeyd edək ki, onun bu ideyasına Avropa Komissiyasında şübhə ilə yanaşılır. Bildirilir ki, bu addım ABŞ ilə ciddi fikir ayrılıqlarına səbəb ola bilər.

Digər tərəfdən, Baş nazir Orbanın fərqli addımları, onun Aİ rəhbərliyi ilə bir sıra məsələlərdə fikir ayrılığı Macarıstanın planlarının icra olunacağına suallar yaradır. Məlumdur ki, Viktor Orban Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenin bu vəzifəyə ikinci müddətə seçilməsinə qarşı çıxmışdı: "Yaşıl transformasiya tam uğursuz idarəçilikdir, miqrasiya paketi heç bir problemi həll etmir. Avropanın daha yaxşı liderliyə ehtiyacı var və bunu bacaran kifayət qədər istedadlı siyasətçilər mövcuddur". Orban həmçinin, son beş ili Avropa İttifaqı tarixində ən uğursuz dövr kimi səciyyələndirmişdi. O, bu uğursuzluğa görə Avropa Komissiyasını və Brüsseldəki elitanı tənqid etmişdi.

Xatırladaq ki, Macarıstanın Baş naziri bundan əvvəl də dəfələrlə Avropanın düşdüyü vəziyyətə görə Aİ rəhbərliyini ciddi tənqid edib. O, Avropa İttifaqı məkanında yaranmış problemlərdə rəhbərliyin əsas səbəbkar olduğunu bəyan edib. Baş nazir Orban hələ bir neçə ay öncə Avropa İttifaqının rəhbərliyində dəyişikliklərin tərəfdarı olduğunu bildirmişdi. "Brüssel avropalıların həyatını taleyin ümidinə buraxıb. Bir tərəfdən Brüsselin siyasəti, digər tərəfdən isə avropalıların maraqları və iradəsi arasında heç vaxt bu qədər uçurum yaranmayıb. Avropa İttifaqının rəhbərliyində dəyişikliklərin edilməsi zəruridir. Bu, yalnız məqsədyönlü tədbirlər nəticəsində baş verə bilər". Lakin Orbanın tənqidlərinə baxmayaraq, Ursula fon der Lyayen yenidən Avropa Komissiyasının prezidenti vəzifəsinə layiq görülüb. Aİ liderlərinin bugünlərdə keçirilən sammitində belə bir qərar qəbul olunub və Avropa Parlamentinin təsdiqindən sonra bu təyinat rəsmiləşəcək. Bundan əlavə, Portuqaliyanın sabiq baş naziri Antonio Kosta Avropa İttifaqı Şurasının prezidenti postunda Şarl Mişeli, Estoniyanın baş naziri Kaja Kallas isə Avropa diplomatiyasına rəhbərlik edən Jozep Borreli əvəzləyəcək.

Beləliklə, Macarıstan sədrliyi dövründə Avropa İttifaqının rəhbər sturkturları ilə fəal işləməlidir. Orbanın irəli sürdüyü proqramın icra olunub-olunmaması isə birgə əməkdaşlıqdan keçir. Həm də, sədrlik cəmi 6 ay davam edəcək. Bu müddət ərzində "Avropanı yenidən möhtəşəm edək!" şüarı ilə planların reallaşdırılması üçün Orban hökuməti daha çevik siyasət həyata keçirməlidir.

*Nardar BAYRAMLI*

# Ermənistan üçün ən böyük maneə - konstitusiya...

Hazırda Ermənistan konstitusiyasının dəyişdirilməsi gündəmin əsas mövzularından biridir. Çünki bu ölkənin konstitusiyasının dəyişdirilməsi Azərbaycanın əsas tələbləri sırasındadır. Səbəb isə burada Azərbaycana qarşı ərazi iddialarının yer almasıdır. Ermənistan Cənubi Qafqazda sülhün tərəfdarıdırsa, Azərbaycana qarşı ərazi iddialarına son qoymalıdır. Dövlətimiz rəsmi səviyyədə bununla bağlı qarşı tərəfə dəfələrlə xəbərdarlıq edib. Nəzərə almaq lazımdır ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-ə yenidən birləşmək haqqında" birgə qondarma qərar yer almaqdadır. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Yəni fakt açıq-aşkar ortadadır və əlavə şərhə ehtiyac yoxdur.

Lakin erməni tərəfi bu mövzuda spekulyasiyanı davam etdirməkdədir. Hələ iyunun 7-də Ermənistanın Xarici İşlər Nazirliyi bəyanat yayaraq guya heç bir qonşusuna, o cümlədən Azərbaycana ərazi iddiası olmadığını açıqlamışdı. Rəsmi İrəvan iddia edib ki, Ermənistanın konstitusiyası və ona dəyişikliklər ölkənin daxili işidir. Bu ölkənin qonşularına qarşı ərazi iddiaları irəli sürməsi faktını təkzib etməyə yönəlmiş 7 iyun tarixli bəyanatı, əslində, beynəlxalq ictimaiyyətin diqqətini iki ölkə arasında sülhə nail olmaq üçün maneə təşkil edən çağırışlardan yayındırmaq niyyətindən başqa bir şey deyil.

Bu gün həqiqətən də əsas problem başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarıdır. Azərbaycanın milli təhlükəsizliyinə bilavasitə təsir edən bu iddianın konstitusiyadan çıxarılmasını tələb etməyə legitim hüququ var və bu, Ermənistanın daxili işlərinə müdaxilə kimi qələmə verilə bilməz. Sülh istəyən ölkə əsas qanunundan ərazi iddiaları olan müddəaları çıxarmalıdır. Lakin rəsmi İrəvan hələ də prosesi uzatmaqla məşğuldur. Amma gec-tez buna getməyə məcburdur. Paşinyanın konstitusiyaya dəyişikliklə bağlı layihənin 2026-cı ilə qədər hazırlanması barədə tapşırığı da bunun göstəricisidir.

Rəsmi İrəvanın konstitusiya islahatlarına getmək məcburiyyətinin başqa səbəbi də var. Son günlər bu məsələ erməni mediasında gündəmə gəlib. Belə ki, hazırkı konstitusiya Ermənistanın Avropa İttifaqına gedən yolda da bir maneədir. Xatırladaq ki, bugünlərdə Ermənistan parlamentində Avropa İttifaqına üzvlüklə bağlı referendum keçirilməsi ideyası gündəmə gəlmişdi. Lakin yerli ekspertlər hesab edirlər ki, mövcud konstitusiyaya əsasən, Ermənistanda Avropa İttifaqına daxil olmaq məsələsi ilə bağlı referendum keçirilə bilməz. Məsələn, konstitusiya hüququ üzrə ekspert Vardan Poqosyan bildirib ki, Ermənistan konstitusiyası respublikada referendumun hansı hallarda keçirildiyini aydın şəkildə müəyyən edir. Konstitusiyada konkret hansı məsələlərin referenduma çıxarıla biləcəyi ilə bağlı hərtərəfli ifadələr var. Əgər söhbət Ermənistanın Aİ-yə daxil olması məsələsinin referenduma çıxarılmasından gedirsə, o zaman bunu etmək olmaz, çünki Ermənistan bu məsələ ilə əlaqədar müvafiq danışıqlar aparmayıb, Avropa İttifaqına daxil olmaq ilə bağlı heç bir sənəd imzalamayıb. Bütün bu prosedurlardan əvvəl sözügedən məsələ ilə bağlı referendum keçirilə bilməz.



Poqosyan onu da qeyd edib ki, bütün danışıqlar, üzvlük prosedurları və müvafiq saziş imzalandıqdan sonra referendum nəinki keçirilə bilər, həm də keçirilməlidir, çünki üzvlük (və ya çıxma) haqqında sazişlər müstəsna olaraq referendum yolu ilə ratifikasiya oluna bilər.

Əgər Ermənistan hakimiyyəti proseslərə başlamazdan və üzvlük üçün ərizə təqdim etməzdən əvvəl Ermənistan vətəndaşlarının mövqeyini birmənalı şəkildə aydınlaşdırmaq istəyirsə, o zaman ümummilli sorğu keçirməyi nəzərdə tutan qanunvericilik islahatlarını həyata keçirmək lazımdır ki, bu da hakimiyyətə vətəndaşların mövqeyini qiymətləndirməyə imkan verəcək. Amma nəzərə almaq lazımdır ki, bu cür sorğular heç bir siyasi və hüquqi nəticələrə səbəb ola bilməz. "Yəni sorğunun nəticələrinə əsasən əksəriyyət Aİ-yə üzv olmaq üçün ərizənin verilməsinə qarşı çıxsa belə, hökumət hər halda ərizə vermək hüququna malikdir. Və ya əksinə - əksəriyyət lehinə olsa belə, təqdim etməyə bilər. Parlament referendum məsələsinə toxunan konstitusiya müddəalarına sözügedən məsələ üzrə ümumxalq səsverməsinin keçirilməsini təmin etmək üçün düzəliş edə bilməz. Çünki əsas qanuna belə dəyişikliklərin edilməsi üçün referendum lazımdır",- deyə erməni ekspert bildirib.

Beləliklə, Ermənistan mövcud konstitusiya ilə nə Azərbaycanla sülh müqaviləsini imzalaya, nə də Avropa İttifaqına üzv olmaq üçün müraciət edə bilməz. Ona görə də, rəsmi İrəvanın bu konstitusiyanı dəyişməsi şərtdir.

*Nardar BAYRAMLI*

# İkinci məğlubiyyət...

## Makronizm iflasa uğrayır

Ayrı-ayrı ölkələrdə bir çox siyasətçilər pafoslu vədlərlə hakimiyyətə gəlməyə nail olsalar da, çox keçmir ki, zaman öz korrektələrini edir və onların yaratdıqları sabun köpüyü dağılaraq sulara qərq olur. Makronun bugünkü acınacaqlı siyasi aqibəti bunun əyani təzahürüdür. “Hazırda Fransada Makron erasının qürub çağı yaşanır” fikrini tam qətiyyətlə ifadə edə bilərik. Onun rəhbərliyi altında Fransa tarixinin, bəlkə də, ən pis dövrünü keçirir. Ölkənin Avropa İttifaqında (Aİ) və bütövlükdə, qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə zəifləyib. Eyni zamanda, daxildə də təbəddülatlar yaşanır, vətəndaşların hakim komandaya inamı getdikcə aşağı düşür. Makron Yelisey Sarayını iflasla üz-üzə qoyur.



## Avropa Parlamentindən sonrakı məğlubiyyət

Bu günlərdə Fransada Milli Assambleyaya (parlamentin aşağı palatası) keçirilən seçkilərinin birinci turunda sağçı “Milli birlik” partiyası və onunla müttəfiq qüvvələr 33,4 faiz səs toplayaraq qalib gəlib.

Bu barədə Fransa Daxili İşlər Nazirliyi məlumat yayıb. Məlumata görə, seçkilərdə ikinci yeri 27,98 faizlə solçu “Yeni Xalq Cəbhəsi” koalisiyası, üçüncü yeri 20,76 faiz səslə Makronun koalisiyası, dördüncü yeri isə 6,56 faiz səslə respublikaçılar tutub. Digər siyasi qüvvələr isə seçicilərin yalnız 3,67 faizinin etimadını qazanıb.

Seçkilərin birinci turunun nəticələrinə görə, “Milli birlik” parlamentdə 39 deputatla, “Yeni Xalq Cəbhəsi” 32 deputatla, Makronun koalisiyası cəmi iki deputatla, respublikaçılar bir deputatla, digər partiyalar isə iki deputatla təmsil olunacaqlar.

Fransa qanunvericiliyinə görə, birinci turda qalib gəlmək üçün namizədlər 50 faizdən çox səs toplamalı və səslərin sayı dairə üzrə qeydə alınan seçicilərin ümumi sayının ən az 25 faizini təşkil etməlidir. Əlli faizlik baryeri keçə bilməyən namizədlər seçkilərin iyulun 7-nə planlaşdırılan ikinci turunda iştirak etməli olacaqlar.

Fransa Milli Assambleyası 577 deputatdan təşkil olunur. Parlamentdə çoxluğu əldə etmək istəyən partiyaya 289 mandat kifayət edir. Bundan əvvəlki seçkilərdə Makronun koalisiyasını Milli Assambleyada cəmi 250 deputat təmsil edirdi. Buna görədə bu və ya digər qanunun qəbulu zamanı koalisiya dəstək üçün digər partiyaların təmsilçilərinin səsini almaq üçün dəridən-qabıqdan çıxmaq, hətta hansısa sövdələşmələrə getmək məcburiyyətində qalırdılar.

Milli Assambleyaya seçkilərin ilk turunda qeydə alınan nəticələr Makronun son vaxtlarda üzləşdiyi ikinci sarsıdıcı məğlubiyyətdir. Xatırladaq ki, Fransada iyunun 9-da Avropa Parlamentinə keçirilən seçkilərdə sağçı “Milli birlik” partiyası 31,36 faiz səs toplayaraq Makron koalisiyasını iki dəfədən çox üstələyib. Partiyasının Avropa seçkilərində iflasından sonra Makron parlamentin aşağı palatasını buraxaraq növbədənkənar seçkilər elan etdi. Bu qərar əslində, Makronun revanş cəhdi idi. O, ümid edirdi ki, daxili seçkilərdə koalisiyası qalib gələcək və bununla da sağçıların Avropa Parlamentinə seçkilərdəki qələbəsinə kölgə salmaq mümkün olacaq. Ancaq Milli Assambleyaya son seçkilər bir daha təsdiqlədi ki, Makron qənaətində yanılır. Onun siyasəti artıq qürub çağındadır və hansına bir reanimasiya cəhdi heç nəyi dəyişməyəcək.

## Marin Le Penin revanşı

“Milli Birlik” partiyasının lideri Marin Le Pen Avropa Parlamentinə seçkilərdəki qələbədən dərhal sonra hakimiyyət iddiaları barədə danışmağa başladı. O, dövləti idarə etməyin məhz onun partiyasının haqqı olduğunun anonsunu etdi. “Biz yeni seçkilərə hazırıq. Əgər xalqımız bizə etimad edərsə, biz Fransada hakimiyyəti ələ almağa hazırıq” - deyə Le Pen bildirib.

Bu iddialı anonsdan sonra Milli Assambleyaya seçkilərin ilk turunda əldə olunan qələbə sağçıların hakimiyyətə gəlmək inamını daha da artırıb. Partiyanın lideri və digər təmsilçiləri artıq Makronun yaratdığı koalisiyanın onların hakimiyyət olimpinə yüksəlməsində maneələr yaratmaq iqtidarında olmadığını açıq-aşkar bəyan edirlər.

“Fransız xalqı “Milli Birlik” partiyasını irəli apardı və Fransa prezidenti Emmanuel Makronun düşərgəsini az qala məhv etdi”. Bu sözləri Marin Le Pen 30 iyunda Milli Assambleyaya keçirilən seçkilərin birinci turunun nəticələrini şərh edərkən deyib.

O, partiyasının Fransanı bərpa edə bilməsi üçün seçkilərin ikinci turunda



parlamentdə mütləq çoxluğun əldə olunmasının zəruriliyinə çağırış edib. O bildirib ki, ikinci tur həlledici olacaq.

Fransada cərəyan edən proseslər onu deməyə əsas verir ki, ölkədə hər şey ikinci turda da Makron koalisiyasının məğlubiyyətinə aparır. Belə olan təqdirdə Makronun prezidentlik kürsüsünü vaxtından əvvəl tərk edəcəyi ilə bağlı ehtimallar da güclənir. Düzdür, onun özü hələ Avropa Parlamentinə seçkilərdəki məğlubiyyətdən sonra istefa vermək fikrində olmadığını bildirmişdi. Ancaq daxili seçkilərin nəticələri bir daha təsdiqlədi ki, artıq Makronun Yelisey Sarayında birinci şəxs statusunu daşımağa mənəvi haqqı yoxdur.



## Ölkəni bürüyən iğtişaşlar

Fransada bu dəfəki seçki kampaniyası cəmi 20 gün davam edib və qızğın müzakirələrlə yadda qalıb. Debatlar, seçicilərlə görüşlər zaman Makronun “Birlik” koalisiyası da daxil olmaqla həm sağçılar, həm də solçular seçkiqabağı vədlərini reallaşdıra bilməyəcəkləri ilə bağlı kəskin ittihamlarla üzləşiblər.

Parlament seçkilərinin ilk nəticələrinin elan edilməsindən sonra isə paytaxtı və regionları iğtişaşlar ağuşuna alıb. Başlayan nümayişdə “Qara blok” (“Black bloc” - red) hərəkatının radikalları xüsusi fəallıqları ilə fərqləniblər.

Hadisələr parlament seçkilərinin ilk turunun nəticələri məlum olduqdan sonra paytaxtdakı Respublika Meydanında baş verib. Nümayiş əvvəlcə sakit keçib, iştirakçılar səsvermənin nəticələrindən narazılıqlarını ifadə edərək antifaşist şüarlar səsləndiriblər. Sonra onlara hərəkatın radikal gəncləri qoşulub. Onlar atəşfəşanlığa və məşəl yandırmağa, daha sonra kafelərin vitrinlərini dağıtmağa və zibil qutularını yandırmağa başlayıblar. Polis buna cavab olaraq gözyaşardıcı qazdan istifadə edib.

## Bədbin proqnozlar...

Avropa Parlamentinə və Milli Assambleyaya seçkilərdə acınacaqlı məğlubiyyət, həmçinin seçkilərdən sonra ölkəni bürüyən iğtişaşlar Makron siyasətinin iflasından xəbər verir. Fransanın daxili və xarici siyasətindəki uğursuzluqlar etimadın aşağı düşməsini şərtləndirən əsas amildir. Son illərdə ölkə tez-tez müxtəlif peşə sahiblərinin kütləvi tətilləri, inflyasiyanın yeni dalğaları ilə silkələnir. Bütövlükdə, statistik göstəricilər Fransa iqtisadiyyatının artımını deyil, dayanıqlığının azalmasını təsdiqləyir. Beynəlxalq reytinq agentlikləri Fransa iqtisadiyyatının hazırkı durumu ilə bağlı bədbin proqnozlar verirlər.

Eyni zamanda, Yelisey Sarayının Afrikada, dənizaşırı ərazilərdə kəskin etirazlarla üzləşdiyinin şahidi oluruq. Fransa getdikcə daha çox sayda keçmiş və hazırkı müstəmləkə ölkələrindən biabırcasına qovulur. Yeri gəlmişkən, Yelisey Sarayının Cənubi Qafqaz siyasəti də adekvat deyil. Makron hökumətinin burada regionun lider dövləti olan Azərbaycanın yaratdığı reallıqları, respublikamızın Avropa İttifaqının enerji təhlükəsizliyinə verdiyi töhfələri nəzərə almaması, birtərəfli qaydada Ermənistanı dəstəkləməsi, məğlub ölkəni revanşizmə həvəsləndirməsi əslində, rəsmi Parisin Cənubi Qafqaz siyasətinin sonunu gətirib.

*Mübariz ABDULLAYEV*

# Cəhənnəm - başqalarıdır

## Jan-Pol Sartrın “Bağlı qapılar arxasında” pyesi haqqında

*əvvəli ötən sayımızda*

Göründüyü kimi, Qarsenin təklif etdiyi çıxış yolu, ideal vəziyyət zahidlərin ibadətinə, meditasiyaya bənzəyir. Bu, böyük dramaturqun azadlığa məhkumluqla tənhalığa məhkumluğu eyni həqiqət saydığını, fərdin anarxist təkliyinə varlığın ideal halı kimi dəyər verdiyini sübuta yetirir. Ancaq cəhənnəm sakinləri belə bir mənəvi nemətə tamarzıdırlar. Tezliklə sükut pozulur, kameradaşlar yenidən bir-birinə möhtac qalırlar. Estel Qarsendən güzgü istəyir, di gəl, Qarsen onu eşitmir. İnes deyir çantasında güzgü olub, fəqət kanselyariyada qeydiyyatdan keçəndə onu əlindən alıblar. Bu vaxt Estel gözünü yumub səndələyir, İnes yetişib onu yıxılmağa qoymur:

“Estel. (Gözünü açıb gülümsəyir) Məndə qəribə hiss yaranıb. (Əliylə özünü yoxlayır) Sizdə belə hallar olurmu? Özünə toxunursan, ancaq havayı yerə: sənə elə gəlir yoxsan.

İnes. Bəxtiniz gətirib. Mən öz təbiətimi həmişə hiss eləyirəm.

Estel. Mənim yataq otağımda altı güzgü var. Mən onları görürəm, ancaq heç birində əks olunmuram. Çarpayı, xalça, pəncərələr... güzgüdə görünür, hər şey, təkcə məndən başqa. Sənin əks olunmadığın güzgü necə də bomboş görünür. Kiminləsə danışanda mən elə oturardum ki, heç olmasa güzgülərdən birinə əksim düşsün. O güzgüdə danışdığıma baxa-baxa danışırdım. Özümə başqalarının gözüylə baxırdım, bu da məni əyləndirirdi...”

Özünə özgələrdən baxan Estel, demək, heç vaxt özü olmayıb, öz təbii varlığının, ekzistensiyasının hökmüylə davranmayıb, həmişə başqalarının cızdığı marşrutla hərəkət eləyib. İndi də fürsətcil İnes ondan ötrü güzgü rolunu oynamağa həvəslə razı olur, ona öz gözlərində özünə baxmaq imkanı yaradır. İnes onun zəifliyindən, başqasına möhtaclığından yararlanıb Qarsenə qısqandığı Esteli ələ keçirmək istəyir. Fəqət Estelin gözü yaraşıqlı Qarsendədir, İnesdən fərqli olaraq onun meyli qadınlara yox, kişilərədir.

Estel İnesin gözündəki kiçicik əksinə baxa-baxa dodağına boya çəksə də, çəkdiyi kobud, pinti çıxır. Bir də cəhd göstərəndə İnes onu inandırır ki, indi yaxşıdır, əsl cəhənnəm dodaqları alınıb. Estel İnesin verdiyi qiymətlə kifayətlənmir, Qarsenin də onun gözəlliyinə baxıb dəyər verməsini istəyir, təkidlə Qarseni tənhalıq yuxusundan ayıldıb onun diqqətini özünə cəlb eləyir.

Qarsen bir daha onlardan qulaq dincliyi diləyir, deyir ki, redaksiyada onun barəsində danışırlar, o da haqqında danışılanları eşitməyə çalışır. Fəqət burada dinclik yoxdur, cəhənnəm sakinləri yaşadıqları ömrə bəraət qazandırmaq üçün başqalarından müsbət rəy almalıdırlar, eynən yeni işə düzələnlərin köhnə işdən xasiyyətnamə, böyüklərdən zəmanət aldıqları kimi. Öz rəyləri, fikirləri onlara artıq yetmir, çünki özləri yoxdurlar, vaxtında layiqincə yararlanmadıqları azad seçim imkanlarını itiriblər, büsbütün başqalarının rəyinə möhtac, özgələrin fikrindən asılı qalıblar.

***

Qarsen yaxşı bilir ki, orada - yer üzündə hamı onu qorxaq sanır, bu səbəbdən heç kim ona acımır, onun xatirəsini əziz tutmur. İnes qorxaqlığını, satqınlığını, əxlaqsızlığını onun üzünə dönə-dönə vurur, məsum, yesir arvadını həyasız küçə pozğununun qulluğunda durmağa məcbur elədiyinə görə onu əclaf, yaramaz adlandırır.

Məsələ burasındadır ki, bu üç nəfərin bir-birinə tutduğu iradların, bir-birinin üzünə oxuduğu günahların hamısı həqiqətdir. Əlbəttə, həqiqət hamının - pisin də, yaxşının da karına gəldiyinə görə ən alçaq adamın da dilindən səslənə bilər. Bu cəhənnəm kamerasında da vəziyyət belədir - hamı hamının hakimi, hamı hamının cəlladı, hamı hamının cəhənnəmidir. Heç kim özünü özgələrin gözüylə görmədən, başqalarından qiymət almadan rahat yaşaya bilmir.

Qarsen qadınlardan susub öz içinə dalmağı, hər şeyi unutmağı bir daha tələb eləyəndə İnes hövsələdən çıxır:

“İnes. Unutmaq?! Bu nə uşaqlıqdır! Mən sizi öz içimdə hiss eləyirəm. Sizin sükutunuz mənim qulağımı çığırtı kimi batırır. Siz ağzınızı yuma bilərsiniz, dilinizi kəsə bilərsiniz, məgər bunlar sizin varlığınıza əngəl ola bilərmi? Fikrinizi necə, susdura bildinizmi? Mən onu eşidirəm, sizin düşüncəniz zəngli saat kimi cingildəyir, inanıram ki, siz də mənim fikrimi beləcə dinləyirsiniz. Nahaq yerə öz divanınızın üstündə domuşmusunuz, siz - hər yerdəsiniz; səslər belə mənim qulağıma tərtəmiz gəlib çatmır, çünki onlara siz də qulaq asırsınız. Hətta mənim sifətimi də oğurlamısınız: siz onu görürsünüz, mənsə yox. Bəs bu qadın? Siz onu da mənim əlimdən aldınız: əgər biz ikilikdə olsaydıq, o mənimlə bu cür davranmağa cəsarət göstərərdimi? Əsla! Əlinizi üzünüzdən götürün, mən sizə dinclik verəsi deyiləm, bunu heç arzulamayın. Siz burada oturub Budda kimi hissiz-duyğusuz bir halda özünüzə dalacaqsınız, mənsə gözlərim bağlı olsa da, duyacağam ki, bu qadın sizə paltarının xışıltısına qədər cürbəcür incə, zərif səslər, sizin görmədiyiniz təbəssümlər göndərir... Yoox! Mən özümə cəhənnəm seçməkdə azadam: sizə gözüm dolusu baxacağam, sizinlə açıq döyüşəcəyəm”.

***

Kişi düşməni İnesin təzyiqinə davam gətirməyən Qarsen onun təhqirlərini kişi düşgünü Estelin sevgisiylə kompensasiya eləməyə çalışır. Qarsen özünü bu sarışın qadına, körpə qatilinə sevdirməyə, qorxaq olmadığına dair ondan arayış almağa cəhd göstərir. Ancaq olub-keçmişləri dəyişmək mümkün deyil - Estel qorxaq kişini sevə bilməyəcəyini açıq söyləyir. Üçlük arasında nifrət, mübarizə ovqatı gücləndikcə hər kəs özünə müttəfiq tutmaqla amansız savaşı udmağa çalışır. Qarsenlə Estelin ittifaqı daha real görünür, di gəl, jurnalistin bu əxlaqsız qadını sevməyi də mümkünsüzdür, bu barədə o açıq danışır:

“Qarsen. Mən sənə əlimdən gələn hər şeyi verməyə hazıram. Bu, çox deyil. Ancaq səni sevə bilməyəcəyəm, çünki səni çox yaxşı tanıyıram.

Estel. Sən məni istəyirsən?

Qarsen. Hə.

Estel. Mənə başqa heç bir şey gərək deyil...

Qarsen. Yanıma gəl, üzümə bax. Nə qədər ki yerdə məndən danışırlar, kiminsə mənə baxmağına ehtiyacım var. Yaşıl gözdən xoşum gəlir.

İnes. Yaşıl gözdən? Bax ha! Bəs sən necə, Estel? Qorxaqları bəyənirsənmi?

Estel. İnan ki, məndən ötrü fərqi yoxdur. Qorxaq olsun, igid olsun, təki öpüşməyi bacarsın...

Qarsen. Yerdəki dostlarım mənim qorxaq olduğum qənaətinə gəldilər. Yarım ildən sonra birini dəyərləndirəndə belə deyəcəklər: Qarsen kimi qorxaqdır. İkinizin də bəxti gətirib, sizi daha yerdə heç kim xatırlamır. Mənim qismətim dözülməzdir... Onlar məni unutmurlar. Onlardan sonra estafeti başqaları götürəcək: mənim həyatım onların əlində qaldı... Mən oyundan kənaram, onlar mənsiz nəticə çıxarırlar... Mənim ömrüm ictimai mala-mülkə çevrildi”.

Qarsen sadəlövh bir inamla düşünür ki, əgər Estellə bir-birini sevə bilsələr, hər ikisi bir-birinə saf ürəkdən inansa, cəhənnəmin bağlı qapıları onların üzünə açılar, xilas olarlar. Estel onun qorxaq olmadığına inanmaqdan boyun qaçırır, deyir ki, əgər Qarsenə inanmağını istəyirsə, birinci gərək Qarsen özü ona inansın. İnes onların mükaliməsini istehzayla qarşılayır, onun fikrincə, Estelə yalnız kişi əli, kişi qoxusu, ehtirasla parlayan kişi gözləri lazımdır, bu istədiklərini alandan sonra o, kişini Tanrıya da tay tuta bilər. Qarsen buna inanmaq istəmir, Esteldən cavab tələb eləyir, Estelsə deyir ki, belə işlərdən başı çıxmır, lazım gəlsə, lap qorxaq kişini də sevə bilər.

Bu cavabdan sonra Qarsen ondan iyrənir, qapını döyəcləyib otaqdan çıxmaq istəyir. Qapı açılanda isə heç kim, elə Qarsen özü də kameranı tərk etmir. Qarsen soyuq ağıllı İnesə qorxaq olmadığını, başqa yolu qalmadığına görə ölkədən qaçmaq istədiyini sübuta yetirməyincə yerini dəyişə bilməz. Bu isə heç bir zaman baş verməyəcək, çünki artıq olan olub, keçən keçib, can qorxusu yaşanmış ömrə rüsvayçılıq damğasını vurub.

***

İnesi oyundan kənar qoymaq üçün Qarsenlə Estel sevgi oyunu oynamağa başlayırlar. Fəqət İnesin qəddar baxışları altında sevişmək, qovuşmaq mümkün deyil. İşıq da ki, heç vaxt sönmür - oturuşmuş təsəvvürdən fərqli olaraq Sartrın cəhənnəmi qaranlıq yox, məhz gur işıqlı yerdir. İnes deyir ki, daima göz qırpmadan onlara baxacaq, həmişə iti nəzərləri onların üstündə olacaq.

Qarsen buxarının üstündəki tunc heykəlciyə sarı gedir, ancaq onu yerindən dəbərtmək heç bir bəşər övladının gücü çatası iş deyil. Estel masanın üstündəki bıçağı götürüb İnesin üstünə atılır, ona bir neçə zərbə endirir. Fəqət ölüb ölümdən keçmiş adamı nə bıçaqla, nə zəhərlə, nə də kəndirlə yenidən öldürmək olmaz. Ölüm artıq geridə qalıb.

Bu məqamda Sartr özünün ən məşhur kəlamını jurnalist Qarsenin dilindən bəyan eləyir: “Cəhənnəm - başqalarıdır”. Bu kəlamı tərsinə də çevirmək olar: “Başqaları - cəhənnəmdir”.

Lev Tolstoy yəqin belə deyərdi ki, cənnət başqalarıdır. Ancaq Sartr Tolstoy deyil, onun nə Tanrıya, əbədiyyətə, nə ruha, nə o dünyaya, nə də cənnət-cəhənnəmə etimadı var. Bu cəhənnəm səhnəsi də bir dini metafora, yaxud fəlsəfi alleqoriyadır. Jan-Pol Sartr “Bağlı qapılar arxasında” əsəriylə dünyanı cəhənnəm səhnəsi, həyatı cəhənnəm kamerası kimi qələmə verir. Onun fəlsəfi menyüsündə ekzistensial tənhalıqdan başqa cənnət yoxdur.



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Mənim polisim məni qoruyur!

## 106 illik tarixə malik şərəfli yol...

*Yeganə BAYRAMOVA*

Vətənə, xalqa sədaqətlə və ləyaqətlə xidmət edən Azərbaycan polisi dövləti və dövlətçiliyimizi daim qoruyur. Yeri gələndə bu müqəddəs amallar uğrunda şəhidlik zirvəsinə yüksəlmək şücaətindədirlər. Onlar ölüm təhlükəsi ilə üzləşən, insanları xilas etmək üçün həyatlarını düşünmədən riskə atan qəhrəmanlar qədər qüdrətlidirlər.

Azərbaycan polisi torpaqlarımızın müdafiəsi, cinayətkarlığın səviyyəsinin azalması, silahlı quldur dəstələrinin zərərsizləşdirilməsi, transmilli mütəşəkkil cinayətkarlığa qarşı effektiv mübarizənin təşkili və digər hadisələrdə şərəflə çalışıb. Onlar qarşıya qoyulmuş vəzifələri layiqincə həyata keçiriblər. Taleyüklü anlarda-dövlətin, vətəndaşların maraqlarının təmin olunmasında da polislərimizin həyatını riskə ataraq böyük rəşadət və qəhrəmanlıq göstərdiyinin, hətta canlarından keçdiklərinin dəfələrlə şahidi olmuşuq. "Mənim polisim məni qoruyur" deyimi də bu gün tam həqiqi mahiyyəti ilə qəbul edilir...

Bu gün ümumxalq əhəmiyyətli məsələlərdə daim öndə olan Azərbaycan polisinin 106 yaşı tamam olur. 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti (AXC) hökumətinin qərarı ilə əsası qoyulan milli polis ötən dövr ərzində çətin və şərəfli yol keçib. 1920-ci il aprelin 27-də cümhuriyyətin süqutundan sonra Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu 70 il ərzində daxili işlər orqanları uğurla inkişaf edib, cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və asayişin qorunmasında böyük təcrübə, yüksək bilik əldə edib. Xüsusilə, Ulu Öndərin rəhbərliyi ilə respublikamızın bir çox sahələrdə böyük uğurlar qazandığı 1970-1980-ci illər nazirliyin tarixinə ən mühüm mərhələ kimi həkk olunub. SSRİ dövründə Azərbaycanın Daxili İşlər Nazirliyi və ona bağlı orqanlar yüksək peşəkarlığı ilə fərqlənib.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın daxili işlər





orqanlarının fəaliyyəti daim diqqət mərkəzində saxlanılıb. Onun 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-si Azərbaycan Polisi Günü elan olunub. Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə böyük uzaqgörənliklə daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar milli kadrlarla komplektləşdirilməsi ilə bağlı önəmli fərman və sərəncamlar imzalayıb. Bu da Azərbaycanın daxili işlər orqanlarının müstəqillik dövründə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasındakı misilsiz xidmətləri ilə yanaşı, ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizədə də özünü göstərdi.

Hazırda Prezidentin diqqət və qayğısı sayəsində davam edən bu inkişaf və modernləşmə vətəndaşlarımızın hüquq və mənafelərini etibarlı müdafiə etməyə tam imkan verir. İlham Əliyevin diqqət və qayğısı sayəsində davamlı inkişafda olan daxili işlər orqanları ölkədə cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilir. Azərbaycan polisi, həmçinin vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən funksiyaları peşəkarlıqla yerinə yetirir və hər zaman vəzifə borcuna sadiq qalaraq ona bəslənən inam və etimadı doğruldur.

Birinci Qarabağ müharibəsindəki döyüşlərdə 1700-ə yaxın polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucalıb, 1710 nəfər isə yaralanıb. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 nəfər orden və medallara layiq görülüb.

DİN əməkdaşları öz şücaət və qəhrəmanlıqlarını İkinci Qarabağ müharibəsində də göstəriblər. Belə ki, Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb. Doğma yurdumuzun işğaldan azad olunması uğrunda qəhrəmancasına döyüşmüş Daxili Qoşunların əməkdaşlarından 1690 nəfər Prezidentin imzaladığı sərəncamlarla müxtəlif orden və medallara, o cümlədən 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.




# "Bakcell" Şuşada yeni mağazasını təqdim etdi!

"Bakcell"in yeni brend strategiyasına uyğun innovativ mağazasının açılışı bu dəfə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində baş tutdu. Yeni açılmış Şuşa mağazası Laçın və Xankəndi filialları ilə birlikdə "Bakcell"in Qarabağ bölgəsindəki sayca 3-cü mağazasıdır.

"Hədəfimiz, yeni brend kimliyimizi təqdim edərkən abunəçilərimizə verdiyimiz vədə sadiq qalmaqdır. Odur ki, biz, bundan sonra da innovasiya və yeni məhsullarımızı Azərbaycanın hər bir bölgəsində, xüsusən də, Qarabağda təqdim edəcəyik. Məsələn, biz ötən ay abunəçilərimizə ölkədəki ən sürətli sabit ev internetini təqdim etdik. Yaxın günlərdə isə, "Wifi" üzərindən zəng xidmətini dəstəkləyən "VoWifi" və bir sıra yeni məhsulumuzu abunəçilərimizin ixtiyarına verməyi planlaşdırırıq" - deyə "Bakcell"in Baş İcraçı Direktoru Klaus Müller Şuşa mağazasının açılışı zamanı qeyd edib.

Şuşa şəhərinin İstiqlaliyyət küçəsində yerləşən yeni "Bakcell" mağazası ziyarətçilərə tam yeni brend təcrübəsi yaşadacaq bir məkandır. Burada abunəçilər ehtiyacları olan ənənəvi xidmətlərlə yanaşı, "Bakcell"in yeni xidmətləri, "high-tech" və "AI" dəstəkli məhsullar haqqında məlumat əldə edə bilərlər. Mağazada əməliyyatları keyfiyyətli şəkildə və sürətlə həyata keçirməyi təmin edən növbəli keçid sistemi və elektron guşə də yerləşdirilib.

Xatırladaq ki, "Bakcell" ötən il Qarabağ bölgəsində ən müasir səs texnologiyası olan VoLTE, eSİM və ölkənin ən sürətli mobil internet şəbəkəsini öz abunəçilərinin ixtiyarına verib. Həmçinin, regionda baza stansiyalarının sayını 120-dən yuxarıya çatdırıb.

## İdman

### Güləşçilərimiz xatirə turnirində beş medal qazanıblar

Azərbaycanın sərbəst güləşçiləri Dağıstanın Kaspiysk şəhərində keçirilmiş Əli Əliyevin xatirə turnirində iştirak ediblər.

Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, 54-cü dəfə təşkil olunan yarışda Rusiya, Azərbaycan, Bəhreyin, Belarus, Macarıstan, Dominikan, Qazaxıstan, Qırğızıstan, Serbiya, Tunis, Özbəkistan və İsveçrədən olan güləşçilər mübarizə aparıblar.



Güləşçilərimiz ənənəvi turnirdə 2 qızıl və 3 bürünc medal qazanıblar.

Əli Rəhimzadə (65 kiloqram) və Aslan Abakarov (97 kiloqram) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Kənan Heybətov, Murad Yevloyev (hər ikisi 70 kiloqram) və Şamil Zubairov (92 kiloqram) isə üçüncü yeri tutub.

### "Asiya uşaqları" Oyunları: Azərbaycan üzgüçüsü qızıl medal qazanıb



Rusiyanın Yakutsk şəhərində keçirilən "Asiya uşaqları" VIII Beynəlxalq İdman Oyunlarının üzgüçülük üzrə yarışlarına yekun vurulub.

AZƏRTAC xəbər verir ki, 4x50 metr məsafəyə sərbəst estafet yarışlarında belaruslu Roman Halmak, Usevalad Sarakavik, tailandlı Mekchai Nithivat ilə birgə çıxış edən Süleyman İsmayılzadə 1 dəqiqə 37 saniyə vaxtla finiş xəttinə çataraq yarışın qızıl medalının sahibi olub.

Beləliklə, Azərbaycan komandasının aktivindəki mükafat sayı 23-ə yüksəlib. Daha öncə idmançılarımız 3 qızıl, 8 gümüş və 12 bürünc medala yiyələnib.

### Azərbaycan Boks Federasiyasının 100 illiyi ilə bağlı xüsusi loqo hazırlanıb

Azərbaycan Boks Federasiyasının (ABF) 100 illiyi ilə bağlı xüsusi loqo hazırlanıb.

Qurumdan AZƏRTAC-a verilən məlumata görə, loqoda sonsuzluq işarəsi, ölkəmizdə boksun yüksələn xətlə inkişafı və gələcək uğurların qarşıda olması öz əksini tapıb.

Bir neçə variantda hazırlanan loqoda rənglər də öz ahəngliyini qoruyub.




Əsas istifadə olunacaq qızılı rəng isə qələbələrimizi tərənnüm edir.




# "Azercell"in dəstəyi ilə növbəti "İnformatika kampı" baş tutub

**Beynəlxalq olimpiadalara hazırlaşan məktəblilər üçün xüsusi təlimlər təşkil olunub**

Ölkəmizi beynəlxalq fənn olimpiadalarında təmsil edəcək şagirdlərin müsabiqələrə hazırlıq prosesi intensiv şəkildə davam edir. Bu məktəblilərə dəstək olmaq məqsədilə "Azercell", Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutunun əməkdaşlığı çərçivəsində müxtəlif hazırlıq proqramları təşkil olunur.

Bu dəfə təlimlər Avropa Qızlar İnformatika Olimpiadası (21-27 iyul, Niderland), Yeniyetmələrin Avropa İnformatika Olimpiadası (16-22 avqust, Moldova) və Beynəlxalq İnformatika Olimpiadasına (1-8 sentyabr, Misir) qatılmağa hazırlaşan məktəbliləri əhatə edib. Bir həftə davam edən "İnformatika kampı" İ. Əfəndiyev adına Elitar Gimnaziyada baş tutub.

Qeyd edək ki, məşğələlərə Bakı ilə yanaşı, respublikanın müxtəlif bölgələrindən həm yuxarı yaş qrupuna aid olan 10-11-ci sinif şagirdləri, həm də aşağı yaş qrupunu təmsil edən 8-9-cu sinif şagirdləri qatılıb. Təlim çərçivəsində məktəblilər hər gün beynəlxalq olimpiada formatında təşkil olunan yarışlara qoşulub, eyni zamanda, məsələlərin ətraflı izahı və yeni mövzuların müzakirəsi yer alan sessiyalarda iştirak ediblər.

Xatırladaq ki, 2017-ci ildən etibarən məktəblilərimizin beynəlxalq fənn olimpiadalarına hazırlıq prosesi "Azercell Telekom" MMC-nin dəstəyi ilə həyata keçirilir. Bu müddət ərzində Azərbaycanın bölgə və paytaxt məktəblərində təhsil alan şagirdlərimiz fərqli yaş qrupları üzrə müxtəlif miqyaslı proqramlaşdırma müsabiqələrində, ümumilikdə, 70 medal qazanıblar.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 3969**
**Sifariş: 1483**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova